

SOCAR iki yataqda iştirak payı alıb

SƏHİFƏ 2-də



Nikbin olan da var, ehtiyat edən də

SƏHİFƏ 11-də



Baqrat və dəstəsinin demarkasiya yalanları

SƏHİFƏ 5-də



Avropanın ilk rəsmi uşaq evindən reportaj

SƏHİFƏ 15-də



Tullantı sularından istifadə olunacaq

SƏHİFƏ 14-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

1 İYUN ŞƏNBƏ 2024 I 20 (4171) Qiyməti - 40 qəpik www.kaspi.az



## İNSAN HÜQUQLARINA İKİLİ YANAŞMA

Peter Stanonun bəyanatı növbəti dəfə göstərir ki, Qərb Cənubi Qafqaz bölgəsini uduzub. Özü də digər geosiyasi qütbə və yaxud hansısa güc mərkəzinə deyil. Elə region təmsilçilərinin özlərinə - Azərbaycana və Gürcüstana.

SƏHİFƏ 4-də



## NİYƏ TƏDQİQATÇI YETİŞDİRƏ BİLMİRİK?

Elm və təhsil naziri Emin Əmrullayevin səsləndirdiyi fikirlər elmi-tədqiqat institutlarını gündəmə gətirib. Belə ki, Azərbaycanda 130-dan çox sahəni əhatə edən elmi-tədqiqat institutları mövcud olsa da, ortada gözəçarpan nəticə yoxdur.

SƏHİFƏ 7-də



## MAŞIN BAZARINDA DİQQƏT CƏLB EDƏN UCUZLAŞMA

Azərbaycanın avtomobil bazarında son illərdə ilk dəfə olaraq ucuzlaşma müşahidə edilir. Ekspertlərin fikrincə, bu tendensiya hələ bir müddət də davam edəcək. Köhnə maşınların qiyməti daha da ucuzlaşacaq.

SƏHİFƏ 12-də



"BİR DAHA BU FACİƏLƏR BİZİM XALQIMIZIN BAŞINA GƏLMƏYƏCƏK"

# XOCALIYA HƏYAT QAYIDIR

Son dörd ildə Prezident İlham Əliyev bütün əlamətdar günlərdə işğaldan azad edilmiş ərazilərə səfər edərək doğma yurdlarına dönən keçmiş məcburi köçkünlərlə görüşür. Bir neçə gün əvvəl qeyd etdiyimiz 28 May - Müstəqillik Günü də istisna olmadı.

### SOYQIRIMINI ƏSLA UNUTMAYACAĞIQ

Prezident İlham Əliyevin Xocalıya səfəri mühüm məqamlarla diqqət çəkir. Xocalı şəhəri 20-ci əsrin ən qanlı və dəhşətli soyqırımılarından birinə şahidlik edib. Azərbaycan illərlə "Xocalıya ədalət" kampaniyası çərçivəsində erməni daşnakları tərəfindən törədilən bu soyqırımı aktının dünyaya tanıdılmasına çalışıb.

### XOCALININ YENİLƏŞƏN SİMASI

Artıq Xocalı yenidən qurulur. 1992-ci ildə şəhidlərimizin, günahsız insanlarımızın qanı ilə yuyulan bu torpaqlara yeni nəfəs gəlir. Həm də bu proses daha təhlükəsiz və artıq heç kimin müdaxilə edə bilməyəcəyi müdafiə sistemi çərçivəsində yaşanır.

SƏHİFƏ 3-də

Türkiyəli psixoloq Ferhat Aydın "Kaspi"də

# "İNSANLARIN PSİXOLOJİ XİDMƏTƏ EHTİYACI ÇOXALIB"



"Psixoloji sağlam biriyəm?" "Psixoloji durumumda hansısa problemlər varmı?" Psixoloji vəziyyəti ilə bağlı hər kəsdə zaman-zaman bu kimi suallar yaranır. Hətta bəzən "Görəsən, mən dəliyəm?" sualını da özünə verənlər olur. Yəni bu istiqamətdə suallarımız çox olur. Biz də bu və psixologiya ilə bağlı digər suallar ətrafında türkiyəli psixoloq Ferhat Aydınla söhbətləşmişik. Görüşümüz Ferhat bəylə Bakıda qonaq olduğu günlərdə baş tutub.

SƏHİFƏ 8-9-da



## MİNALAR MƏSKUNLAŞMAYA ƏSAS MANEƏDİR

"Azərbaycan minalarla çirklənmiş ölkələr arasında ilk beşlikdə dayanır. 2020-ci ildən bəri 361 Azərbaycan vətəndaşı mina qurbanı olub. Mina problemi o qədər böyükdür ki, bu prosesi yekunlaşdırmaq illər alacaq".

SƏHİFƏ 2-də



## NİGER URANI UĞRUNDA AMANSIZ MÜBARİZƏ

Afrikada ağır məğlubiyyətlər alan Emmanuel Makronun Fransası daha bir rəqiblə üz-üzədir. Bu dəfə Nigerdə Paris üçün həyati əhəmiyyət daşıyan uran yataqlarının yeni müştərisi var - İran.

SƏHİFƏ 6-da



## TOZLU HAVALARDA ZƏHƏRLƏNMƏK İSTƏMİRSİNİZSƏ...

Son günlər Bakıda havada toz qatının miqdarının artdığını adi gözlə də müşahidə etmək mümkündür. Həkimlər bildirirlər ki, özümüzü qorumadıqda, belə hava şəraiti insan orqanizmi üçün çox ağır fəsadlara səbəb olur.

SƏHİFƏ 10-da

## "Real", yoxsa "Borussiya"?



İngiltərənin məşhur "Uembli" stadionunda keçiriləcək oyunda İspaniya "Real Madrid"i və Almaniya təmsilçisi "Borussiya" (Dortmund) üz-üzə gələcəklər. UEFA Çempionlar Liqasının qalibi məhz bu oyundan sonra bəlli olacaq.

SƏHİFƏ 16-da

## Hər saata verilən dəyər



Azərbaycanda aylıq minimum əməkhaqqı saatlıq minimum əməkhaqqı ilə əvəz edilə bilər. Bir müddətdir bu istiqamətdə müzakirələr gedir. Bəs bu keçid hansı formada olacaq?

SƏHİFƏ 13-də

Kaspi ÜÇ ƏSRİN QƏZETİ





## Qusarın icra başçısı vəzifəsindən azad edildi

Prezident İlham Əliyev Qusar Rayon İcra Hakimiyyətinin başçısının vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Şair Balaşərif oğlu Alxasov Qusar Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.




## SOCAR SARB və "Umm Lulu" yataqlarında iştirak payı alıb

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Əbu-Dabi Milli Neft Şirkəti (ADNOC) arasında SARB və "Umm Lulu" yataqlarında iştirak payının 3%-nin SOCAR-a verilməsinə dair saziş imzalanıb. "Report"un SOCAR-a istinadən verdiyi məlumata görə, SOCAR-ın prezidenti Rövşən Nəcəfin və ADNOC-un upstream üzrə icraçı direktoru Abdulmunim Saif Əl Kindinin iştirakı ilə keçirilən imzalanma mərasimində Azərbaycan ilə BƏƏ arasında strateji enerji tərəfdaşlığına əsaslanan sənədin SOCAR-ADNOC əməkdaşlığının genişləndirilməsinə xidmət etdiyi bildirilib.

Tədbirdə şirkətlər arasında əməkdaşlıq əlaqələrinin uğurla inkişaf etdiyi vurğulanıb. Bu xüsusda ADNOC tərəfindən "Abşeron" qaz-kondensat yatağında 30%-lik iştirak payının əldə edilməsinin, həmçinin şirkətlər arasında "mavi hidrogen", geotermal və karbon idarə edilməsi üzrə əməkdaşlıq məsələlərini nəzərdə tutan Strateji Əməkdaşlıq Sazişinin önəmi qeyd olunub.

# Minalar məskunlaşmaya ƏSAS MANEƏDİR




**Fotolar:** Global Media Group/Tapdıq Abdullayev

Elçin Əmirbəyov: "Azərbaycan minalarla çirklənmiş ölkələr arasında ilk beşlikdə dayanır. 2020-ci ildən bəri 361 Azərbaycan vətəndaşı mina qurbanı olub. Mina problemi o qədər böyükdür ki, bu prosesi yekunlaşdırmaq illər alacaq".

"Minaların ətraf mühitə təsirinin azaldılması: Təhlükəsiz və yaşıl gələcək üçün resursların səfərbər olunması" mövzusuna həsr olunmuş III Beynəlxalq Minatəmizləmə Konfransının ikinci günündə bir sıra panel müzakirələr təşkil olunub.

"Report" xəbər verir ki, tədbir Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMT İP) birgə təşkilatçılığı ilə keçirilib. Konfransın birinci günü Zəngilanda baş tutmuşdu.



### "YAŞIL" GƏLƏCƏK YARATMAĞA ÇALIŞIRIQ

Tədbirdə çıxış edən Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov bildirib ki, bu ilin sonuna kimi 20 min keçmiş məcburi köçkün yurdlarına köçürüləcək: "Bugünkü konfransın şüarında deyildiyi kimi, biz minanın ətraf mühitə təsirini azaltmağa, təhlükəsiz və "yaşıl" gələcək yaratmağa çalışırıq. Mina fəaliyyətləri xüsusilə münaqişədən sonra çox vacib fəaliyyətdir. İşğaldan azad edilmiş ərazilərdə böyük yenidənqurma işləri həyata keçirilir və onların hamısı sıfırdan başlayıb. Dünən (mayın 30-da – red.) siz gördünüz ki, sakinlər sıfırdan öz həyatlarına başlayıblar. Ümumilikdə 800 minə yaxın keçmiş məcburi köçkünün öz yurdlarına qayıtması üçün işlər sürətlə davam edir. 20 min keçmiş məcburi köçkün bu ilin sonuna kimi yurdlarına köçürüləcək, ümumilikdə 9 şəhər yenidən qurulacaq. 2021-ci ildən bəri bərpa və yenidənqurma işlərinə təxminən 7 milyard ABŞ dolları yatırılıb".

### VƏZİYYƏTİ ÇƏTİNLƏŞDİRƏN AMİL

Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsi vurğulayıb ki, Ermənistanın mina xəritələrini verməkdən imtinası vəziyyəti çətinləşdirir: "Azərbaycan görüləcək işlərlə bağlı üzərinə öhdəlik götürüb. Ümid edirik ki, Ermənistan da bu öhdəlikləri anlayır. Keçmiş məcburi köçkünlərin yurdlarına qaytarılması gecikir, çünki Azərbaycan minalarla çirklənmiş ölkələr arasında ilk beşlikdə dayanır. 2020-ci ildən bəri 361 Azərbaycan vətəndaşı mina qurbanı olub. Mina problemi o qədər böyükdür ki, bu prosesi yekunlaşdırmaq illər alacaq. Amma bu gün yüksək avadanlıqlarla təchiz olunmuş ANAMA kimi bir qurumumuzun olduğunu qürurla deyə bilərik. Bu konfransın yükün bölüşdürülməsində beynəlxalq ictimaiyyətin iştirakına imkan verəcəyinə ümid edirik".

E.Əmirbəyov əlavə edib ki, belə vacib məsələdə beynəlxalq ictimaiyyətlə birlikdə fəaliyyət göstərilməlidir. O, BMT-yə mina fəaliyyətində iştirakına və uzunmüddətli əməkdaşlığa görə təşəkkür edib: "Mayın 30-da niyyət sazişi imzalandı. Bu, bilik mübadiləsi üçün çox böyük haba çevriləcək. Mən bütün beynəlxalq tərəfdaşlarımıza minatəmizləmədəki rollarına görə təşəkkür edirəm".

### BMT NÜMAYƏNDƏSİNDƏN AZƏRBAYCANA TƏŞƏKKÜR

Tədbirdə BMT-nin Sülh Əməliyyatları Departamentində Qanunun aliliyi və təhlükəsizlik institutları üzrə baş katibin köməkçisi Aleksandr Zuyevin konfrans iştirakçılarına videomüraciəti də səsləndirilib. O qeyd edib ki, ətraf mühit amilləri milli fəaliyyət planları ilə uyğunlaşdırılmalıdır. Beynəlxalq mina fəaliyyətləri standartlarının yenilənməsi bu yaxınlarda dərc olunacaq.

A.Zuyev Azərbaycan hökumətinə ətraf mühiti qorumaq üçün göstərdiyi səylərinə, xüsusilə mina fəaliyyətini 18-ci Dayanıqlı İnkişaf Məqsədi (DİM) kimi təqdim etdiyinə görə təşəkkür edib: "Azərbaycanın COP29-a ev sahibliyi etməsi də bu sahədə işlər görməkdə maraqlı olduğunu göstərir. BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Vladanka Andreyevanın rəhbərliyi altında görülən işləri yüksək qiymətləndirirəm. Gəlin, bu görüşdən katalizator kimi istifadə edək və daha çox yaşıl gələcək üçün çalışaq".

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



“AZƏRBAYCAN XALQI ƏBƏDİ ƏMİN OLSUN, BİR DAHA BU FACİƏLƏR BİZİM XALQIMIZIN BAŞINA GƏLMƏYƏCƏK”

# XOCALIYA HƏYAT QAYIDIR

Prezident İlham Əliyev: “Bu qayıdışın Müstəqillik Gününə təsadüf etməsi təsadüfi deyil. Çünki bildiyiniz kimi, keçən il Müstəqillik Günündə mən Laçın şəhərində laçınlılara evlərinin açarlarını təqdim etmişdim. İki il bundan əvvəl Müstəqillik Günü ərəfəsində - mayın 27-də Ağalı sakinləri ilə görüşmüşdüm. Onlar da məhz o gündə köçmüşdülər. Bu gün isə xocalılılar qayıdırlar. Bu, gözəl tarixi hadisədir”.





AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Müstəqillik günü ərəfəsində Azərbaycan xalqı işğaldan azad edilmiş ərazilərə böyük qayıdışla bağlı daha bir tarixi ana şahidlik etdi. Budəfəki qayıdışın ünvanı qan yaddaşımıza əbədi həkk olunan Xocalı oldu. Xocalı sakinlərinin bayram sevincini ikiqat edən isə qayıdış prosesində müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəxsən iştirak etmələri idi.

### ARTIQ ƏNƏNƏYƏ ÇEVRİLMİŞ SƏFƏRLƏR

Qeyd edək ki, son dörd ildə Prezident İlham Əliyev bütün əlamətdar günlərdə işğaldan azad edilmiş ərazilərə səfər edərək həm doğma yurdlarına dönən keçmiş məcburi köçkünlərlə görüşür, həm də bərpa-quruculuq işləri çərçivəsində yeni infrastruktur obyektlərinin təməlini qoyur. Bir neçə gün əvvəl qeyd etdiyimiz 28 May - Müstəqillik Günü də istisna olmadı. Artıq ənənə halını alan bu səfərlər Xocalıya dönüşlə birlikdə yeni bir vüsət aldı.

Dövlət başçısı sakinlərlə görüşdə bu məsələni xüsusilə qeyd etdi: “Bu qayıdışın Müstəqillik Gününə təsadüf etməsi təsadüfi deyil. Çünki bildiyiniz kimi, keçən il Müstəqillik Günündə mən Laçın şəhərində laçınlılara evlərinin açarlarını təqdim etmişdim. İki il bundan əvvəl Müstəqillik Günü ərəfəsində - mayın 27-də Ağalı sakinləri ilə görüşmüşdüm. Onlar da məhz o gündə köçmüşdülər. Bu gün isə xocalılılar qayıdırlar. Bu, gözəl tarixi hadisədir. Xocalı da gördüyünüz kimi, gözəlləşir, yenidən qurulur”.





## XOCALI SOYQIRIMINI ƏSLA UNUTMAYACAĞIQ

Dövlət başçısının Xocalı şəhərinə səfəri bir sıra mühüm məqamlara görə xüsusilə diqqət çəkir. Öncə də qeyd etdiyimiz kimi, Xocalı şəhəri 20-ci əsrin ən qanlı və dəhşətli soyqırımlarından birinə şahidlik edib. Azərbaycan illərlə “Xocalıya ədalət” kampaniyası çərçivəsində erməni daşnakları tərəfindən törədilən bu soyqırımı aktının dünyaya tanıdılmasına çalışsa da, bir çoxları həqiqətləri görməzdən gəlməyə üstünlük verdilər. İndi isə vəziyyət tamamilə dəyişib. Yüzlərlə günahsız insanımızın min bir əzabla qətlə yetirildiyi bu torpaqlarda həyat yenidən qaynayacaq. Ancaq bir həqiqət dəyişməyəcək. O da, qan yaddaşımız olan Xocalı soyqırımını əsla unutmayacağımız və unutdurmayacağımızdır.

### ERMƏNİSTAN BİZDƏN ÜZR İSTƏMƏLİDİR

Prezident İlham Əliyevin Xocalı sakinləri ilə görüşündə bu məsələnin üzərində xüsusi olaraq dayanması əslində



dünyaya ünvanlanan mesaj kimi də dəyərləndirilə bilər. Soyqırımı Memorial Kompleksi ilə bağlı ortaya qoyulan siyasi iradə bu siyasətin əsla dəyişməyəcəyinin göstəricisidir. Dövlət başçısı özü də bildirdi ki, Xocalı soyqırımı abidəsinin, Memorial Kompleksinin yaradılması ilə bağlı uzun illər müzakirələr edilirdi: “Hətta “Ana fəryadı” abidəsinin yanında yer də seçilmişdi, layihə də hazırlanmışdı. Ancaq hər il mən son təsdiqimi vermirdim. Çünki ürəyimdə saxlayırdım ki, bu Memorial Kompleks Xocalıda yaradılmalıdır və belə də oldu. Həmin o layihəni biz gətirdik və fevralın 26-da Xocalıda xocalılılarla bərabər Xocalı Memorial Kompleksinin təməli qoyuldu və burada inşa ediləcək. Bütün dünya da görəcək ki, erməni vəhşiliyi nədir, bu, həqiqətdir və bunu hər kəs bilməlidir. Ermənistan özü bunu etiraf etməlidir, özü bizdən üzr istəməlidir. Ancaq bunu etməklə ola bilsin ki, indiki Ermənistan rəhbərliyi - o vəhşilərin, vandalların, qaniçənlərin günahlarını bir qədər yumuş ola bilər. Bunu etməsə, məncə, Ermənistan özü heç vaxt ayağa dura bilməyəcək. Gərək, ilk növbədə, Ermənistan özü bu faciəni, bu cinayəti, hərbi cinayətini tanısın”. Bəli, Azərbaycan illər keçsə də, Xocalıya ədalət tələb edir və edəcək. Bu işin baiskarlarının layiqli cəzalarını almaları üçün bütün imkanlardan sonuna qədər yararlanacaq. Çünki bizim Xocalı soyqırımını, işğaldan azad edilmiş ərazilərimizdəki dağıntıları, faciələri unutmağa haqqımız yoxdur.

## BU FACİƏLƏRİ BİR DAHA YAŞAMAYACAĞIQ

Artıq Xocalı yenidən qurulur, gözəlləşir, inkişaf edir. 1992-ci ildə şəhidlərimizin, günahsız insanlarımızın qanı ilə yuyulan bu torpaqlara yeni nəfəs gəlir. Həm də bu proses daha təhlükəsiz və artıq heç kimin müdaxilə edə bilməyəcəyi müdafiə sistemi çərçivəsində yaşanır. İşğaldan azad edilmiş ərazilərimizdə qurulan güclü təhlükəsizlik sistemi tək Xoacılını yox, sərhədlərimizdən başlayaraq hər bir qarışı əhatə edir. Prezidentin də qeyd etdiyi kimi, Ermənistanda revanşistlər kifayət qədər çoxdur: “Biz son hadisələri də izləyirik, görürük ki, bizə qarşı yenidən ərazi iddiaları irəli sürmək cəhdləri var. Ona görə biz hər an hazır olmalıyıq. Əlbəttə ki, ilk növbədə, ordumuzu daha da gücləndirməliyik və bunu edirik.

Bu gün hərbçilər üçün inşa edilmiş evlərlə də tanış oldum. Bütün Qarabağ və Şərqi Zəngəzur çox möhkəm bir istehkam zonası olacaq və burada artıq bu istiqamətdə işlər görülür ki, Azərbaycan xalqı əbədi əmin olsun, bir daha bu faciələr bizim xalqımızın başına gəlməyəcək”.

### XOCALININ DƏYİŞƏN SİMASI

Bəli, biz ermənilərin vaxtilə qanunsuz məskunlaşdırma siyasətinin əsas tərkib hissəsi olan, lakin bu gün azad, bizim üçün müqəddəs məkan sayılan Xocalının simasını tamamilə dəyişirik. Artıq bu prosesin birinci mərhələsinə start verilib. Xocalı şəhərinin yenidən qurulması üzrə birinci mərhələ 167 hektar və 18 hektar olmaqla iki hissədən ibarətdir. Birinci mərhələdə 167 hektar ərazidə 140 fərdi ev, 48 kottec tipli ev və 9 binadan ibarət 110 evdə tikinti, təmir-bərpa və abadlıq işləri görülür. Həmçinin 18 hektar ərazidə yerləşən fin tipli 92 evdə isə tikinti, təmir-bərpa və abadlıq işləri həyata keçirilir. Bunlardan əlavə, Xocalı şəhərinin girişində - çay kənarında bulvarın salınması işləri davam edir. Bulvar ilə üzbəüz isə çarşı-bazar qurulur, iaşə obyektləri tikilir. Göründüyü kimi, Xocalıya yeni nəfəs, həyat qayıdır. İllərlə gözlənilən daha bir həsrət xoşbəxt sonluqla yekunlaşır. Davamlı olsun...

# İNSAN HÜQUQLARINA İKİLİ YANAŞMA



Peter Stanonun bəyanatı növbəti dəfə göstərir ki, Qərb, əsasən də kontinental Avropa Cənubi Qafqaz bölgəsini uduzub. Özü də digər geosiyasi qütbə və yaxud hansısa güc mərkəzinə deyil. Elə region təmsilçilərinin özlərinə - Azərbaycana və Gürcüstana.



RÜSTƏM QARAXANLI

Qərbin "insan hüquqları" mövzusu ilə müstəqil siyasət yürütmək istəyən dövlətlərə təzyiq cəhdləri yenilik deyil. Bu mexanizmin əsas alətlərindən biri qismində Avropa İttifaqı (Aİ) çıxış edir. Ötən həftə Aİ-nin Azərbaycanın ünvanına daha bir nəticəsiz həmləsi ilə yadda qaldı. Qurumun xarici siyasət və təhlükəsizlik məsələləri üzrə mətbuat katibi Peter Stano Azərbaycanda insan hüquqlarına dair həqiqətdən uzaq bəyanatla çıxış etdi və adəti üzrə rəsmi Bakının əsaslı arqumentləri ilə susduruldu. Qərbin əlində dəlillər olmayanda "insan hüquqları sahəsindəki vəziyyət"ə müraciət edir. Bunun ən son nümunəsi qonşu Gürcüstana edilən təzyiqlərdir. Odur ki, cənab Stanonun qəfil bəyanatının arxasında siyasi hesabların olduğu şübhəsizdir.

### "İNSAN HÜQUQLARI" MANİPULYASİYASI

Aİ-nin bu gedişinin həmişəki kimi siyasi motivli olduğu həm sirr deyil, həm də P.Stanonun toxunduğu məqamlardan aşkar görünür. Məsələn, bəyanatda COP29 mövzusuna toxunulması qənaətimizin əyani sübutudur. XİN-in cavab bəyanatında səsləndirildiyi kimi, "Azərbaycanın COP29-a sədrliyinin bu prosesə aidiyyəti olmayan siyasi motivlərlə şərtləndirilməsi, ölkəmizin öhdəliyi daxil olmaqla, iqlim dəyişikliyi ilə mübarizədə əməkdaşlıq istiqamətində ideyanın mahiyyətinə ziddir".

Bəyanatdan hiss edilən məqamlara bənzər yanaşma Azərbaycana münasibətdə nə ilk dəfədir tətbiq edilir, nə sonuncu. Misallar yetərincədir, ancaq birini xatırlasaq, kifayətdir. 2015-ci ildə Avropa tarixində ilk olan Avropa Oyunlarının Azərbaycana həvalə edilməsi bizim istəyimiz deyildi. Özləri həvalə etmişdilər. Azərbaycan da bu istəyi layiqincə qəbul etdi və olimpiya oyunları çapında idman tədbirinin keçirilməsinə nail oldu. Ancaq heç kim oyunların başlanılması ərəfəsində Avropa KİV-də və siyasi dairələrində Azərbaycanın ünvanına ən müxtəlif məzmunlu, həqiqətdən uzaq çamurun atılmasını unutmayıb. O vaxt da əsas alət "insan hüquqları" idi. Həmin aksiyanın arxasında hansı qüvvələrin durduğunu bilirik. Necə ki, indi - COP29-la bağlı ünvanımıza səsləndirilən ittihamların haradan qaynaqlandığına bələdik.




### YENİ KALEDONİYA HADİSƏLƏRİNİN Aİ ƏKS-SƏDASI

Avropanın müxtəlif strukturları tərəfindən Azərbaycanın ünvanına səslənən ədalətsiz bəyanatların, hətta embarqo, sanksiya hədələrinin arxasında hansı qüvvələrin, daha doğrusu, hansı dövlətin durduğu sirr deyil. 44 günlük müharibədən sonra Aİ, Avroparlament kimi qitə institutları Fransanın Azərbaycana qarşı təzyiq cəhdləri üçün rupora çevriliblər. Cənubi Qafqazda Ermənistanla birlikdə Fransanın da Azərbaycana məğlub olmasını təbii ki, Parisdə həzm edə bilmirlər. İndi isə fransız şovinizmi Azərbaycan tərəfindən tamamilə fərqli, qeyri-ənənəvi coğrafiyada tərs şilləyə "qonaq" olub - uzaq Yeni Kaledoniya və Polineziyada. Bakı öz müqəddəratlarını özləri həll etmək istəyən, fransız müstəmləkəçiliyindən qurtulmağa çalışan, Parisin yekəxana, eqoist istibdadına "yox" deyən kiçik dövlətlərin və xalqların özünüifadəsi üçün effektiv platformaya çevrilib.

## KORRUPSİYA QALMAQALLARININ İNSAN HÜQUQLARI İLƏ BAĞLILIĞI YOXDUR?

P.Stanonun bəyanatını diqqətlə oxuyanda elə təəssürat yaranır ki, sanki Aİ rəsmisi təmsil etdiyi qurumun üzvlərində insan hüquqları ilə bağlı bərbad vəziyyətə dair müşahidələrini bizə münasibətdə dilə gətirib. Görəsən, Aİ-nin Azərbaycana qarşı həmlələrinin arxasında duran Fransada adi sosial problemlərə görə küçələrə axışan insanlara münasibətdə tətbiq edilən zorakılıq hallarından Stanonun xəbəri var? Kəndlilərin Fransadan Benilüks dövlətlərinə keçən etirazlarının qarşısı Aİ-nin insan hüquqları standartlarına əsasən alınır? Yoxsa qurumda ildə bir neçə dəfə baş qaldıran rüşvət və korrupsiya hallarının insan hüquqları ilə heç bir bağlılığı yoxdur? Yeri gəlmişkən, hazırda aktual olan yeni qurumdaxili korrupsiya qalmaqalı Qərbin başlıca hədəfi olan Rusiya ilə bağlıdır. Bir tərəfdən Rusiyanı işğalda suçlayan avroməmurlar, digər tərəfdən rüşvət müqabilində qaranlıq mexanizmlərin iştirakçısına çevrilirlər.

Qərbin, o cümlədən Avropanın "insan hüquqları" mövzusuna selektiv yanaşmasının daha bir klassik nümunəsi Ermənistandakı vəziyyətə dair "ağzına su alıb" susmasıdır. Necə olur, Gürcüstanda hüquq-mühafizə orqanlarının vətəndaşlara qarşı qanunun imkan verdiyi çərçivədə davranışı Qərbin kəskin reaksiyasına səbəb olur, ancaq Ermənistanda bunun eynisini müşahidə etmirik. Ermənistanın daxilində baş verənlərin Azərbaycanla birbaşa əlaqəsinin olmasına rəğmən, izlənənlər Qərbin, o cümlədən Aİ-nin "insan hüquqları" mövzusu ilə manipulyasiyası deyilmi?

P.Stanonun bu bəyanatı növbəti dəfə göstərir ki, Qərb, əsasən də kontinental Avropa Cənubi Qafqaz bölgəsini uduzub. Özü də digər geosiyasi qütbə və yaxud hansısa güc mərkəzinə deyil. Elə region təmsilçilərinin özlərinə - Azərbaycana və Gürcüstana. Həm Bakı, həm də Tbilisi müstəqilliklərinə manеə yaratmaq istəyən dairələrə yetərli müqavimət göstərirlər. Bu müqavimətin çətin həzmi isə özünü Stanonun bəyanatı kimi lazımsız və gücsüz aksiyalarda büruzə verir.

## ONLARDAN BƏLKƏ DƏ ƏN QƏDDARI ELƏ FRANSADIR

Küçədə XXI əsrin olmasına baxmayaraq, özünü sivil dünyanın bastionu kimi təqdim edib faydalı qazıntılar, xammal naminə kiçik xalqları istismar edən dövlətlər hələ də var və onlardan bəlkə də ən qəddarı elə Fransadır. Son bir ay ərzində Yeni Kaledoniyada fransız istismarından cana yığılan xalqın Makron hakimiyyətinə qarşı olan hiddətini Parisdə "Azərbaycanın əməli" kimi qiymətləndirirlər. Bu, əslində Fransanın Azərbaycana daha bir məğlubiyyəti və sözün düzü, həm də faciəsidir. BMT TŞ-nin beş daimi üzvündən biri, nüvə dövləti olan Fransa kiçik, cəmi 30 illik müstəqillik tarixi olan, torpaqlarının işğalına yenicə son qoymuş Azərbaycanı "onun daxili işlərinə qarışmaqda" suçlayır. Görünür, Yelisey sarayındakılar bizdən qisaslarını, dünya qarşısında isə rüsvayçılıqlarını ört-basdır etmək üçün ənənəvi yola - Aİ-nin bəyanatlarına əl atmaq məcburiyyətində qalıblar.

# BAQRAT VƏ DƏSTƏSİNİN DEMARKASİYA YALANLARI









Müxalifətin və keçmiş siyasilərin, yəni Baqratın dəstəsinin əsas məqsədi xalqı yalan və manipulyasiya yolu ilə meydanlara yığmaq, Nikol Paşinyanı devirməkdir. Keşişin ən böyük arzusu baş nazir postuna yiyələnmək, ətrafındakılara vəzifə paylamaqdır.

FUAD ABASOĞLU

"Vətən uğrunda Tavuş" hərəkatının lideri Baqrat Qalstanyan artıq baş nazirlik iddiasına düşdüyünü gizlətmir. Rahibliyini dondurduğunu bildirən erməni keşiş ölkədə davam edən itaətsizlik aksiyalarına liderlik edir. Erməni müxalifəti və keçmiş siyasilərdən ciddi dəstək alan Baqrat işini ustalıqla tutmaq, xalqı "həvəsləndirmək" üçün müxtəlif yalan tezislər üzərindən hərəkət edir.

Qalstanyanla görüşən müxalifət və keçmiş siyasilər isə Azərbaycanla aparılan demarkasiya və sərhədlərin müəyyənləşdirilməsi prosesi ilə bağlı cəfəng açıqlamalar verirlər. Onlar guya bu prosesin Konstitusiyaya uyğun olmaması, sözügedən kəndlərdə sakinlərə əvvəlcədən Kadastr idarəsi tərəfindən sənədlərin verilməsini əsas gətirirlər.

### YALANLARI ÖZLƏRİ DƏ İFŞA EDİRLƏR

Bəs əslində vəziyyət necədir? Bir qrup keçmiş diplomat, siyasilər sərhədin demarkasiyası ilə bağlı əsassız şübhələr yaratmağa çalışırlar. Bunu hətta erməni politoloqları və mütəxəssisləri də etiraf edirlər. Məsələn, Qor Tsraukyan və Vardan Poqosyan kimi erməni cəmiyyətində müəyyən nüfuza malik şəxslər yalanları ifşa etməkdən çəkinmirlər.

"Ümumerməni diplomatlar ittifaqı" adlı qrupun bu yaxınlarda dərc etdiyi bəyanat və mülahizələr də əsassızdır və manipulyasiya xarakteri daşıyır.

## ALMATI BƏYANNAMƏSİNİ DƏ İNKAR EDİRLƏR

Məsələn, bəyanatda bildirilir ki, Almatı bəyannaməsi sərhədlərin müəyyən edilməsi və demarkasiya üçün əsas ola bilməz. Əslində isə Almatı bəyannaməsi dövlət sərhədlərinin müəyyən edilməsi prinsiplərinə aiddir ki, bu da demarkasiya prosesində əsas kimi götürülüb. Rəsmi Bakı və İrəvan 1991-ci ildə bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanıyıb. Sözügedən bəyannamə əsasında keçmiş SSRİ respublikalarının sərhədləri dövlət sərhədi kimi qəbul edilib. Hüquq və məntiq arasındakı bu aşkar qanuni əlaqə özünə diplomat deyənlər üçün aydın olmalı idi.

Digər bir məqam isə sərhədlərin tənzimlənməsi və sərhəd təhlükəsizliyi komitəsinin fəaliyyətinin hüquqi əsasları ilə bağlıdır. Keçmiş ombudsmanlar və diplomatlar dərk etmirlər ki, komitənin funksiyası Sovet dövründən mövcud olan sərhədi yenidən çəkmək, dövlət sərhədi haqqında beynəlxalq müqavilə bağlamaqdır. Tərəflər 2021-ci ildə Soçidə Ermənistan və Azərbaycan arasında sərhədin demarkasiyası üzrə komissiyaların yaradılması barədə razılığa gəliblər ki, bu, 2022-ci ildə Brüsseldə də təsdiqlənən üçtərəfli bəyannamədə qeyd olunub. Bu razılaşmalar əsasında Ermənistanın baş nazirinin 2022 570-A saylı qərarı ilə komissiya yaradılıb. Ermənistan və Azərbaycan komissiyaları arasında əldə olunan razılaşmaya əsasən, onlar sərhədlərin müəyyən edilməsi prosesində Almatı bəyannaməsini rəhbər tutacaqlar. Sərhəd xəttinin ayrı-ayrı hissələrinin razılaşdırılması hüquqi əsası olan 1976-cı ilin topoqrafik xəritələri əsasında həyata keçiriləcək.



## KƏNDLİLƏRİN QANUNSUZ ŞƏHADƏTNAMƏSİNİ ƏSAS TUTURLAR

Başqa bir məqam kəndlərin sakinlərinə məxsus mülkiyyət şəhadətnamələri ilə bağlıdır. Siyasilərin əlində rəhbər tutduğu uyğunsuzluğun səbəbi isə Ermənistanla Azərbaycan arasında heç vaxt, ən azı, həmin hissədə heç bir detallı demarkasiya işinin aparılmamasıdır. Bu qeydiyyatlar dövlət qeydiyyatı faktına görə, qeyri-dəqiqliklərə əsaslanaraq, sözügedən ərazilərin Ermənistan Respublikasının suveren ərazisinin bir hissəsi hesab edildiyini təsdiqləmək üçün hüquqi əsas ola bilməz.

### XEYRIMLI KƏNDİNƏ AİD YALANIN İFŞASI

Digər bir vəziyyət Azərbaycanın Xeyrımlı kəndi ilə əlaqədardır və bu məsələdə Ermənistan Respublikasının "İnzibati-ərazi bölgüsü üzrə" qanunu əsas gətirilir. Amma əslində vəziyyət necədir? Sözügedən qanun 2017-ci ildə qəbul edilib. SSRİ-nin dağıldığı dövrdə mövcud olan xəritələrdə, eyni zamanda 1976-cı il xəritəsində dəqiq göstərilir ki, Xeyrımlı Azərbaycan SSR ərazisidir və heç bir halda Kirantsın ərazisi kimi təqdim edilə bilməz.

### 1976-CI İL XƏRİTƏSİNİ DƏ İNKAR EDİRLƏR

Müxalifətin manipulyasiya etdiyi məsələlərdən biri də 1976-cı ilin xəritələri ilə bağlıdır. Bildirilir ki, SSRİ Baş Qərargahının 1976-cı il xəritəsinin heç bir hüquqi əsası yoxdur, çünki həmin illərdə Ermənistan SSR ilə Azərbaycan SSR arasında sərhədlə bağlı müqavilə olmayıb. Amma unudulan və üstündən keçilən məqam odur ki, 1976-cı ilin xəritəsi üzərində SSRİ Dövlət Geoloji Nəzarətinin ərazi müfəttişlərinin rəislərinin imzaları var. 1969-cu ildə isə Azərbaycan SSR və Ermənistan SSR arasında sərhədlə bağlı müqavilə imzalanıb. Sözügedən imza isə 1969-cu ildə iki sovet respublikası arasında imzalanan müqaviləni təsdiqləyir və hüquqi cəhətdən uyğunluğunu vurğulayır.

Göründüyü kimi, müxalifətin və keçmiş siyasilərin, yəni Baqratın dəstəsinin əsas məqsədi xalqı yalan və manipulyasiya yolu ilə meydanlara yığmaq, Nikol Paşinyanı devirməkdir. Keşişin ən böyük arzusu isə baş nazir postuna yiyələnmək, ətrafdakılarına vəzifə paylamaqdır.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az



# Niger uranı uğrunda AMANSIZ MÜBARİZƏ

Afrikada ağır məğlubiyyətlər alan Emmanuel Makronun Fransası daha bir rəqiblə üz-üzədir. Bu dəfə Nigerdə Paris üçün həyati əhəmiyyət daşıyan uran yataqlarının yeni müştərisi var - İran.



AZƏR NURİYEV

Fransa prezident Emmanuel Makronun uğursuz və yarıtmaz xarici siyasətinin acı nəticələrini yaşayır. 2017-ci ildən ölkəni idarə edən Makron bu illər ərzində Fransaya ancaq uğursuzluqlar gətirib. Keçmiş müstəmləkələrdən qovulmaqdan tutmuş, daxili siyasətə qədər ölkə problemlər içində boğulur. Afrikada uzun illər müstəmləkə şəraitində yaşayan dövlətlər artıq fransız üsul-idarəsindən bezdiklərini açıq ifadə edirlər. Fransanın dənizaşırı müstəmləkəsi hesab olunan Yeni Kaledoniyada yaşananlar da bu qəbildəndir. Sirr deyil ki, keçmiş müstəmləkələr Fransa büdcəsinə milyardlarla gəlir gətirirdi. İndi artıq ölkə bundan da məhrum olmaqdadır. Konkret olaraq Niger Yelisey sarayını ciddi problemlərlə üz-üzə qoyub. Nigerdən əldə olunan uran Paris üçün ciddi mənfəət demək idi. Artıq ərazidən qovulan Fransanın yerini tutmağa iddialılar da ortaya çıxıb. Bu ölkələr sırasında nə qədər təəccüblü olsa da, İran da var.

### TEHRANIN URAN MARAĞI

Nüvə silahı əldə etməyə iddialı olan İran bu Afrika ölkəsinə daxil olmağa çalışır. Fransanı narahat edən odur ki, İran Nigerdə urana çıxış əldə etməkdə israrlıdır. Bu səbəbdən də vəziyyəti xüsusi diqqətlə izləyirlər. Məsələ ondadır ki, Fransanın ən böyük nüvə şirkəti "Orano" hələ də Nigerin paytaxtı Niameydə fəaliyyət göstərir. 2023-cü ildəki hərbi çevrilişdən sonra Paris Niamey ilə ortaq dil tapa bilməsə də, nüvə yataqlarında hələ də fəaliyyətini davam etdirir. Tehrana gəldikdə, bu ölkə pilotsuz təyyarələr və raketlər müqabilində yerli hakimiyyət orqanlarından 300 ton uran konsentratı almağa çalışır. "Biz Beynəlxalq Atom Enerjisi Agentliyi qarşısında həm zəmanətlər, həm də bəyannamələr ilə bağlı müvafiq öhdəliklərə əməl olunmasını və BMT Təhlükəsizlik Şurasının 2231 saylı qətnaməsinə əməl olunmasını təmin etmək üçün bu məsələni xüsusi izləyirik", – deyə Fransa hökumətindəki mənbə mediaya bildirib.




### VAŞİNQTONDAN MÜDAXİLƏ CƏHDİ

İranın Nigerə nüfuz etməsi ilə bağlı müzakirələrə ilk dəfə "The Wall Street Journal" mart ayında dərc olunan məqalədə toxunub. Nəşr o zaman mənbələrə istinadən yazmışdı ki, ABŞ Nigerdə hakim Vətənin Qurtuluşu Milli Şurasına (NSRS) təzyiq göstərməyə çalışıb. Səbəb də o olub ki, Niger İranla nüvə sahəsində əməkdaşlıq sazişi imzalamaq istəyir. Məhz bu səbəbdən ABŞ Niger ilə hərbi sahədə sazişi denonsasiya edib. Halbuki Vaşinqton Parisdən fərqli olaraq Nigerdəki üsyançılarla dialoq qurulmasına səy göstərib.

## İKİ ÖLKƏ ARASINDA 56 MİLYON DOLLARLIQ MÜQAVİLƏ

Fransanın təhlükəsizlik məsələlərini işıqlandıran "Africa Intelligence" portalının məlumatına görə, Tehran və Niamey 2023-cü ilin sonundan danışıqlar aparır. Bu məlumata görə, İran tərəfi Arlit şəhəri yaxınlığındakı yataqdan nüvə yanacağının hazırlanmasında istifadə oluna bilən uran konsentratı olan 300 tona yaxın xammal əldə etməyə çalışır. Proqnozlaşdırılan müqavilənin ümumi dəyəri 56 milyon dollar qiymətləndirilir. Mümkündür ki, sövdələşmənin iqtisadi komponenti də olsun. 2024-cü ilin yanvarında hazırda İran prezidentinin səlahiyyətlərini icra edən Məhəmməd Mohber qeyd edib ki, ölkəsi sanksiyalardan yayınmaq təcrübəsini Nigerlə bölüşməyə hazırdır. 2023-cü ilin iyul ayının sonlarında baş vermiş çevriliş səbəbindən Niamey Qərb ölkələri və Qərbi Afrika Dövlətlərinin İqtisadi Birliyi (ECOWAS) kimi regional platformalar tərəfindən blokada ilə təhdid edildi, lakin sonradan sanksiyalar qismən yüngülləşdirildi.

Müharibə Araşdırmaları İnstitutu (ABŞ) qeyd edir ki, 300 ton xammal - əhəmiyyətli miqdarda urandır və bu, 2019-cu ildə İranda yerli istehsal səviyyəsinə bərabərdir.

## FRANSA ÜÇÜN BİRBAŞA TƏHLÜKƏ

Fransa üçün birbaşa təhlükə, nüvə sənayesinin flaqmanı olan "Orano" şirkətinin hələ də Nigerdə mövcudluğunu qoruyub saxlaması və uran çıxarılan Arlitin onun məsuliyyət sahəsi olmasıdır. Zavodun direktoru Nikolas Mas fevral ayında keçirdiyi mətbuat konfransında "Orano" şirkətinin Nigerdə "azaldılmış səviyyədə" fəaliyyətini davam etdirdiyini təsdiqləyib. Onun sözlərinə görə, şirkətin vəzifələri hazırda "reagentlərin tədarükü, həmçinin uranın ixracı yollarının tapılması" ilə bağlıdır. Mas istisna etməyib ki, "Orano" müəyyən mərhələdə "Nigerdə istehsalı daha davamlı templə bərpa edəcək".

### PARİS YENİ SEÇİM AXTARIŞINDA

ABŞ kəşfiyyatına yaxın olan "Stratfor" analitik mərkəzi qeyd edib ki, Fransa mövcud Niger hakimiyyətinin ona yerli urana çıxışı təmin etməkdən imtinası ilə üzləşsə belə, "uranın tədarükünü diversifikasiya etmək üçün uzunmüddətli səyləri gücləndirə bilər". Məsələn, Paris Kanada və Qazaxıstanla əlaqə qurmağa, habelə Özbəkistan və Monqolustanda yeni mədən layihələrinin həyata keçirilməsini təşviq etməyə çalışır. Bununla belə, "Orano"nun aktivlərinin Nigerdən çıxarılması Parisin keçmiş Afrika müstəmləkələri ilə münasibətlərini pozmasının ən son simvolu olardı.

Şübhəsiz ki, İranın meydana atılması özünün təşəbbüsü deyil. Bu da daha çox Afrikada güclənməyə çalışan Rusiya və Çindən qaynaqlanır.

# NİYƏ TƏDQİQATÇI YETİŞDİRƏ BİLMİRİK?



Elm və təhsil naziri Emin Əmrullayevin bu yaxınlarda səsləndirdiyi fikirlər ölkədə elmi-tədqiqat institutlarının sayının həddən artıq çox olması, real nəticələrin isə görünmədiyi faktını gündəmə gətirib. Belə ki, Azərbaycanda 130-dan çox sahəni əhatə edən elmi-tədqiqat institutları mövcud olsa da, ortada gözəçarpan nəticə yoxdur.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

"Biz ən yaxşı halda mütəxəssis hazırlaya bilirik, tədqiqatçı yox. Azərbaycanda ali təhsil müəssisələrində elmi-tədqiqat komponenti aşağıdır". Elm və təhsil naziri Emin Əmrullayevin bu yaxınlarda səsləndirdiyi bu fikirlər ölkədə elmi-tədqiqat institutlarının sayının həddən artıq çox olması, real nəticələrin isə görünmədiyi faktını da gündəmə gətirib. Belə ki, 130-dan çox sahəni əhatə edən elmi-tədqiqat institutları mövcud olsa da, ortada gözəçarpan nəticə yoxdur. Kəmiyyətin keyfiyyəti üstələməsi narahatlıq doğurur.

Təhsilin tədqiqat əsasında qurulması, keyfiyyətin artırılması, interaktivliyin təmin olunması üçün vəziyyətdən çıxış yolu tapmaq isə asan görünmür.

### EYNİ İSTİQAMƏTLİ İNSTİTUTLAR VARSA...

Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Ceyhun Məmmədov hesab edir ki, əsas məsələ institutların sayının çoxluğu və ya azlığı deyil: "İnstitutlar çox da, az da ola bilər. Əsas hədəf və yanaşma düzgün strategiyanın olması və konkret olaraq hansı istiqamətlərdə işin aparılmasıdır. Burada iş konkret proqram üzrə getməlidir". Millət vəkilinin fikrincə, gələcəkdə institutların bir qisminin və ya hamsının universitetlərə verilməsi məsələsinə baxılmalıdır: "Tədqiqat institutları gələcəyə doğru ali təhsil müəssisələrinə verilərsə, biz o zaman konkret hədəf və vəzifələr müəyyən edib daha yaxşı nəticələr əldə edə bilərik. İlk növbədə bizim daha çox hansı sahələrdə araşdırmalara ehtiyacımızın olduğu müəyyən olunmalıdır. Əgər eyni istiqamətdə fəaliyyət göstərən institutlar varsa, hesab edirəm ki, tənzimlənmə nəzərdən keçirilə bilər".

### SADƏ HƏLLİ OLMAYAN PROBLEM

Kembric Universitetinin professoru Qərib Mürşüdov Azərbaycanın təhsil müəssisələrində elmi-tədqiqatların zəif olmasının müxtəlif səbəblərinin olduğunu bildirir: "Bunlar arasında ola bilər ki, ən vacibi təhsil işinin təşkilidir. Müəllimlər həddən artıq çox dərs deyir – bizdə 400-500 saat dərs demək qeyri-adi sayılmır. Müqayisə üçün Böyük Britaniyada 150 saat dərs həddən artıq çox sayılır. Ola bilər ki, təhsilin tədqiqat əsasında qurulması bu problemi qismən həll edə bilər. Hazırkı şərait belədir ki, müasir elmi-tədqiqatla məşğul olan müəllimlər azdır, olanlar da həddən artıq dərs dediklərindən vaxtları qalmır".

Professor hesab edir ki, Azərbaycandakı tədqiqat institutlarının sayı azaldılmalıdır. Belə ki, bütün tədqiqat institutlarının eyni dövlət qurumuna tabe olması vacib deyil, onlar ya müxtəlif nazirliklərə, ya universitetlərə və ya xeyriyyə cəmiyyətlərinə tabe olmalıdırlar: "Britaniyada əsas tədqiqatlar universitetlərdə həyata keçirilir. Ancaq dövlətin strateji məqsədlərinə uyğun istiqamətlərdə fəaliyyət göstərən neçə institut da var. Onlar isə strategiya dəyişəndə və ya məhsuldar olmayanda bağlanırlar. İkinci tip tədqiqat institutları xeyriyyə cəmiyyətləri tərəfindən yaradılır və maliyyələşdirilir". Q.Mürşüdov ümumiyyətlə bu sahədə hərtərəfli islahatlara ehtiyac olduğunu bildirir: "Maliyyə artırmaqla, institut bağlamaqla bu problem həll olunmayacaq".

## DƏRS VERƏ BİLƏCƏK MÜƏLLİM HEYƏTİNƏ EHTİYAC VAR

ADA Universitetinin professoru Gülməmməd Məmmədov isə ölkəmizdə elmi-tədqiqat institutlarının çox olmasını kəmiyyət göstəricisi hesab edir: "Onların say baxımından azaldılması və ya ləğvi yox, birləşdirilməsi və daha səmərəli idarə olunması ilə bağlı addımlar atıla bilər. Elə bir struktur yaradılmalıdır ki, elmi-tədqiqat müəssisələri ölkə üçün daha əhəmiyyətli olsun və az sayda istiqamət üzrə fəaliyyət aparsın. Belə olanda resursların idarə olunması da, tədqiqat müəssisələrinin ortaya qoyduğu tədqiqat keyfiyyətlərinin nəticələri də daha yüksək ola bilər. Sayın çox olması keyfiyyətin qaçılmaz olaraq aşağı düşməsinə səbəb olur".

## AZƏRBAYCANIN PULU HESABINA APARILMIŞ TƏDQİQAT...

G.Məmmədov hesab edir ki, əgər elmi-tədqiqat institutları universitetlərin balansına verilsə, bu, effektiv olmayacaq: "Dünyanın aparıcı jurnallarında bizim alimlərin tədqiqatlarının nəticələri çıxır. O tədqiqatlar Azərbaycan dövlətinin pulu hesabına aparılır. Onların dərcindən Azərbaycan dövləti nə fayda götürə bilər? İlk növbədə bu məsələ müəyyən edilməlidir. Yadda saxlanmalıdır ki, elmi yeniliklərin önündə gedən bir kəşf edilsə, bunu birinci Azərbaycan kimi balaca dövlət yox, böyük dövlətlər məhsula çevirib qazanc əldə edəcəklər. Təkcə məqalələrin dünyanın aparıcı jurnallarında çap olunmasını hədəf kimi müəyyən etməyin özündə böyük bir yanlışlıq var. Azərbaycan dövlətinin pulu hesabına aparılmış tədqiqat nəticəsi niyə ayrı bir yerdə çıxmalıdır? Belə çıxır ki, Azərbaycan dövlətinin pulu ilə biz tədqiqatı başqa dövlətlər üçün aparırıq. Ona görə də öz ölkəmizin iqtisadiyyatına fayda verəcək tədqiqatlar aparmalıyıq".



### ELMİ MÜHİTİ SAĞLAMLAŞDIRMALIYIQ

Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyətinin sədri İlqar Orucovun fikrincə, ölkəmizdə çox sayda yaxın profilli tədqiqat institutları var ki, onları birləşdirmək vacibdir: "Bu, administrativ xərclərin azaldılmasına gətirib çıxaracaq. Bir ara kimdən xoşları gəlirdisə, onun üçün institut açıblar. Eyni zamanda, oxşar və yaxın laboratoriyalar var ki, onları birləşdirmək olar". Təşkilat rəhbəri "Azərbaycanda tədqiqatçı yoxdur" fikri ilə razılaşmır: "Bu, ağır ittihamdır. Bəlkə də nazir fikrini belə sərt ifadə etmək istəməyib. Azərbaycanda az da olsa yaxşı tədqiqatçılar var. Sayın az olmasının da səbəbi var. Biz elmi mühiti sağlamlaşdırmalıyıq. Sağlam rəqabət, düzgün qiymətləndirmə olmalıdır".




Fotolar: Rufat Mikayilov-Firudin Salimov/Global Media Group

TÜRKİYƏLİ PSİXOLOQ FERHAT AYDIN PSİXOLOGİYA İLƏ BAĞLI "KASPİ"NİN SUALLARINI CAVABLANDIRIR




# "İNSANLARIN PSİXOLOJİ XİDMƏTƏ EHTİYACI ÇOXALIB"



**Ferhat Aydın:** "İstədiyin kimi yaşa, nə yaxşı gəlirsə, onu et, anı yaşa, duyğularını hiss et" məsləhəti də o qədər asan deyil. Həyatın reallıqları da var, onlara adaptasiya olmaq lazımdır"

"Psixoloji sağlam biriyəm?" "Psixoloji durumumda hansısa problemlər varmı?" Psixoloji vəziyyəti ilə bağlı hər kəsdə zaman-zaman bu kimi suallar yaranır. Hətta bəzən "Görəsən, mən dəliyəm?" sualını da özünə verənlər olur. Yəni bu istiqamətdə suallarımız çox olur. Biz də bu və psixologiya ilə bağlı digər suallar ətrafında türkiyəli psixoloq Ferhat Aydınla söhbətləşmişik. Görüşümüz Ferhat bəylə Bakıda qonaq olduğu günlərdə baş tutub.

● **Psixoloji sağlam insan mövzusundan danışaq. Psixoloji sağlam insan kimdir?**

● Yetkin insandan danışırıqsa, ehtiyaclarını bilən, duyğularından agah olan, hisslərini zamanında ifadə edən, sərhədlər qoya bilən, fərdiliyini yaşayarkən, kütləviliyə önəm verən, sosial bacarıqları olan insan deyə bilərik. İnsanlarla və özü ilə münasibətinin normal olması da buraya daxildir. Psixoanaliz elminin banisi Ziqmund Freyddən bəri insanın bir işdə çalışa bilməsi də psixoloji sağlamlıq durumunda əsas götürülür. Bir də sevə bilmək çox önəmlidir. Bunların hamısını bir balansda saxlayana psixoloji sağlam deyə bilərik. Başqa nüanslar da ola bilər, amma ilk ağlıma gələn bunlar oldu.

● **Ətrafımızdakı nə qədər adamı psixoloji sağlam hesab edə bilərik?**

● Sualınıza konkret cavab olaraq faizlə hər hansı rəqəm deyə bilməyəcəm, amma psixoloji istiqamətdə təcili addımlar atılmasının, müdaxilələr edilməsinin vacib olduğunu düşünürəm. Çünki psixoloji durumdan danışanda, burada cəmiyyətdəki iqtisadi və siyasi duruma mütləq baxmalıyıq. Son illər isə iqtisadi cəhətdən çox çətin dövr oldu. İnsanların maliyyə durumları pisləşdi, iş həyatları ilə bağlı çətinliklərlə üzləşənlər həddindən artıq çox oldu.

*"Bəzən insanlar özlərinə sual verirlər ki, mən dəliyəm? Bu sualı ağıllı insanlar özlərinə verirlər. Ağlı başında olmayan insanı bu sual düşün-dürmür."*

● **Psixoloqların sayı artır. Zamanla psixoloqa ehtiyac çox olacaq?**

● İki halda insanlar psixoloqa getmirlər. Yaz gəlincə və aşiq olunca. Yaz bitdi, eşqlərin də durumu yaxşı deyil (Gülür). Psixoloqlara tələb çox olacaq. Sosial mediada da görürsünüz ki, psixoloqlar davamlı videolar çəkib paylaşırlar, nələrisə izah edirlər. Görünür ki, insanların psixoloji xidmətə ehtiyacı çoxalıb.

● **Bəzən insanda öz psixoloji sağlamlığı ilə bağlı suallar olur.**

● Psixoloji durumunuzla bağlı suallarınız varsa, psixoloqa getmək lazımdır. Durumu o dəyərləndirsin. Bir misalla deyim. Bəzən insanlar özlərinə sual verirlər ki, mən dəliyəm? Bu sualı ağıllı insanlar özlərinə verirlər. Ağlı başında olmayan insanı bu sual düşündürmür.

● **Bəs psixoloji sağlam olmayan insanların beynində hansı suallar dolaşır?**

● Məsələn, birinin sağlamlıqla bağlı ciddi problemi olmaz. Amma o, sağlamlığı ilə bağlı psixoloji olaraq çox narahatlıq keçirir. Tutaq ki o adam hava limanına gedir, yarım saatlıq yolu var. Getməmişdən öncə bir saat vaxt sərf edib hava limanına qədərki yolda olan xəstəxanaları araşdırır və taksinin yolunu həmin xəstəxanaların yanından keçərək planlaşdırır. "Mənə nə isə olsa, xəstəxanaya tez çatdırsınlar" kimi düşünür. Yaxud birinin əl yumaqla bağlı takıntısı var. Daim əlini yumaqla bağlı düşünür. Əlini hara vurubsa, onun ona çirk gətirib-gətirmədiyi haqqında düşünür. İçində öz-özünə cavabsız suallarla məşğul olur. Enerjisi boşa gedir, yorulur. Yəni beyin əlaqələr qurmaq, istehsal etmək yerinə, öz içində dönüb dolaşır.

## "MƏCBURİYYƏT YAXŞILAŞDIRIR"

● **Gündəlik həyatımızı necə keçirməyimiz psixoloji durumumuza hansı formada təsir edir?**

● Ədəbiyyat, musiqi, yoqa ilə psixologiyamızı bəsləyə bilərik. İnsan olaraq bizə çox yaxşı təsir edən halların başında sosial münasibətlər dayanır. Onları arxa plana atmamalıyıq. Hobbimizi, yaxud hansısa yaradıcılığımızı istifadə edə biləcəyimiz bir sahə ilə məşğul olmağımız önəmlidir. Yaxud idmanla məşğul ola bilərik. Günlük enerjimizi bir yerə axıtmalıyıq. Sənət, idman, özümüzə baxım deyə ümumiləşdirə bilərik.

● **Bunları bəzən edirik, amma sonra həvəsimiz olmadığı dönəmlər olur və dayandırırıq.**

● Hansısa dönəm həyatımızda bunların heç biri olmaya bilər. Məsələn, iki ay yas tutursunuz, heç birini edə bilməyəcəksiniz. Etməməlisiniz, çünki o yası yaşamanız lazımdır. Bəzən adamın qolunu yataqdan qaldırmağı gəlmir. Belə dönəmdə özünü məcbur hala gətirməyi də doğru hesab etmirəm.

● **Yəni məcbur yox, həvəsimiz olanda etməliyik?**

● Düzdür, amma "İstədiyin kimi yaşa, nə yaxşı gəlirsə, onu et, anı yaşa, duyğularını hiss et" məsləhəti də o qədər asan deyil. Həyatın reallıqları da var, onlara adaptasiya olmaq lazımdır. Tutaq ki, bir saat sonra mənim tok-şou planım var, amma ürəyim səhnəyə çıxmaq istəmir. "Çıxmıram" deyə bilmərəm. İnsanın bəzi nöqtələrdə özünü məcbur etməsi də lazım gəlir. "Məcburiyyət yaxşılaşdırır", - deyə bir yanaşma var. Mən valideynlərə uşaqları bəzən məcbur buraxın deyirəm. Uşağa yemək üçün nə qədər çox seçim verərsən, yeməsi o qədər sıxıntılı olur. Mehmet Sunqur deyib ki, həyat sevdiyimiz şeyləri etdiyimiz yer deyil, etmək durumunda olduğumuz şeyləri sevməyi öyrəndiyimiz bir yerdir.

● **İşlərin çoxluğu, tıxaclar vaxt alır, kitab oxumağa, idmana, hobbiyə və s. vaxtı, enerjisi qalmadığını deyənlər çox olur. Ancaq bunu edənlər də var.**

● Tıxaclar, ya da həyatımızın çətinlikləri ilə əlaqəli şikayət edənlər əslində çox da haqsız deyillər. Norveçdə yaşamırsınızsa, bunlar sizi yorar. Onları bir yandan anlayıram. Amma bir yandan da düşünək: edən necə edir? Bir müəllim misal çəkirdi. Deyirdi ki, adam evini təmizləmir, amma idmana gedir. Qəribə görünür. Adam idmana gedə bilmir, deyir ki, pul və vaxt yoxdur. Bu ikisi ən məşhur bəhanələrdir. Evə getdiyində 10 dəqiqə meditasiya, kitab oxumaq üçün vaxt ayırmaq nə pul istəyir, nə də ciddi vaxt.




Fotolar: Rüfət Mikayılov / Global Media Group

## "UŞAQLIQ GÖZƏL KEÇƏN DÖNƏM DEYİLDİR"

● **Uşaqlıq travmaları bugünkü psixoloji durumumuzda hansı rola malikdir?**

● Bu suala ümumi bir cavab vermək çətindir. Bacarıqlı, məşhur adamların uşaqlığına baxdıqda, çox da gözəl keçmədiyini görürük. Uşaqlıq ümumiyyətlə, gözəl keçən dönəm deyildir. Hər kəsin müəyyən sıxıntıları olur. Bəziləri müharibə görür, bəziləri tək uşaqdır, ona da çətindir, bəziləri beş uşaqdır, ona da çətindir. Uşaqlıqda yaşadıqlarımız bu günə təsir edir. Necə təsir etməsi hər kəsə görə dəyişir. Tutaq ki, mən uşaq vaxtı səhnədə, göz önündə olan insan olmuşam. Böyüdüyümdə səhnəyə çıxmağa davam da edə bilərəm, səhnədən qaça da bilərəm.

● **Travmasını gülərək anladanlar var, bir də ağlayaraq. Yanaşma uşaqlıq travmalarının təsirini dəyişir?**

● Yanaşma tərzimizin travmalarla baş etmə mövzusunda təsiri ola bilir. Ancaq hər kəs yaşadığı hadisəni gülərək anlada da bilmir. Hər kəs eyni vəziyyətdən eyni şəkildə çıxmır. Biriləri deyinir, biriləri deyinməyi buraxır, nə isə həll etməyə çalışır. Bəziləri düşür, qalxmağı bilir, bəziləri düşüb aşağıda ağlamağa davam edir. Fərdi məsələdir. Bəziləri gülüş ustası olur. Bəzən gülmək, yaxud zarafat etmək problemin üstünü örtür. Sən kənardan baxıb, "Necə güclüdür, o qədər şey yaşadı, hələ gülür" deyə bilərsən. Amma elə olmaya bilər. Zarafatlar gerçəklərimizin üstünü örtə bilir.

● **Valideynlərlə bağlı olan uşaqlıq travmaları övladları daim valideynlərdən şikayət ediləcək hala gətirir...**

● "Valideynlərdən şikayət etmənin son istifadə tarixi var", - deyə fikir var. Hazır olduğun vaxt bunu dayandırmalısan.

● **Bizdə valideynlər deyirlər ki, özün valideyn olanda, bizi başa düşəcəksən. Hazır olduğumuz vaxt budur?**

● (Gülür) O da ola bilər. Amma bu, daha çox insanın yetkinləşməsi, böyüməsi ilə əlaqəlidir. Valideynlərimiz bizi döyəndə psixoloji travma vurduqlarını bilməyiblər - kimi düşünə bilərik. Amma bu, bizə vurduqları travmaya görə valideynlərə əsəbiləşməməli olduğumuz anlamına gəlmir. Adi hal kimi yanaşıb bağışlamaq da olmur. O əsəb durur. Ancaq ömür boyu şikayət edərək yaşamaq da doğru deyil.

● **Valideynləri anlamaq və anlamamağın psixologiyamıza təsiri fərqli ola bilirmi?**

● Yetkin insan deyinmək, şikayətlənmək yerinə, edilməsi lazım olanı edir. Saatlarla anamdan şikayət tipli danışıramsa, tam da böyüməmiş oluram. Atam-anamla əlaqəmi bir düzənə oturtmadığımda (küsməkdən, kəsib atmaqdan bəhs etmirəm), həll edilməmiş işlər kimi qalır. Keçmişlə bağlı həll edilməmiş işlərim qalıbsa, mən burada yetkin insan olaraq münasibət qura bilmirəm. Məni sevməyəcək, yaxud istismar edəcək birini tapıram, yaxın əlaqədən qaçıram, yaxud atam, anam kimilərini həyatıma alıram. Keçmişdən azad olmasan, sən özün ola bilmirsən. Bir qərar verərkən ona ata-ana qərar verir, sən yox.

## "TƏK "SEVİRƏM" DEMƏKLƏ OLMUR"

● **Bizdə bir mahnı var, deyir ki, bütün işləri sevgi düzəldir. Sevgi psixologiyamıza necə təsir göstərir?**

● Sevmək çox yaxşı təsir edən gücdür. Bizə sevgi qədər yaxşı təsir edən hiss yoxdur. Təbii ki, söhbət normal sevgidən gedir. Fəqət sevgi dilimizi bilməliyik ki, o yaxşı gəlsin. Çünki çox adam necə sevəcəyini, necə sevildiyini bilmir. Sevmək nə deməkdir? Sevəndə nə edirsən? Sevildiyini necə hiss edirsən? Bu suallar çox adam üçün bir az havadadır. Birinə çiçək verəndə, sevildiyini hiss edir. O biri duymaq istəyir. O biri "Sən bunu sevərsən, aldım" sürprizində sevildiyini hiss edir. Biri qısqanıldıqda sevildiyini zənn edir. "Qısqanmadı, sevmir", - deyə düşünür. Qısqanclıq gözləmək əslində sıxıntılıdır.

Bəzən deyirlər ki, "gündə üç dəfə sevirəm dedim, bu uşaq niyə belə oldu?" O, sevgi deyil. Tək "sevirəm" deməklə olmur. Sevmək məsuliyyətlilik istəyir. Çiçəyi sevirsənsə, sulayacaqsan. Bir gün sevdiyini deyərsən, bir gün qucaqlayarsan, bir gün öpərsən, bir gün "kinoya gedək" deyərsən.

● **Yəni "sevirəm" demək insana kifayət etmir.**

● "Yuxuda uşaq sevən ata" modeli var. Uşaq oyaq olanda, onu əzizləməz, xoş söz deməz, sevgisini göstərməz ki, ərköyünləşəcək. Yatanda sevir, əzizləyir. Buna sevgi demirik. Uşaq, böyük - fərq etmir, ümumiyyətlə, göstərilməyən sevginin psixologiyamıza bir faydası yoxdur.

## "İNSAN DANIŞDIQCA ÖZÜNÜ TAPIR"



● **Bitən münasibətlərdən danışaq. Biri uzun müddət yeni münasibətə başlamır, bəziləri isə "Köhnə sevgilini unutmağın ən yaxşı yolu yeni sevgilidir" kimi yanaşırlar. Hansı doğrudur?**

● Biri dünyasını dəyişəndə necə yas saxlayırıqsa, birindən ayrılanda da, onun yasını tutmalıyıq. Hətta evimi dəyişdirdiyimdə də yas tuta bilərəm. Bir münasibət bitdiyində, ona üzülmərəm, qurduğum xəyalların olmaması ilə əlaqəli yaşadığım xəyal qırıqlığı, dostlarıma "Bunları yaşadıq, nə gözəldir, amma kaş ki bitməsəydi" deyə bilməyim, dərdləşməyim çox önəmlidir. Bəziləri bu yası saxlayıb bir müddət yeni münasibətə başlamırlar. Bəziləri isə yeni sevgi ilə həyatlarına davam etməyi daha uyğun görürlər. O da ola bilər, bu da. Hər kəsin sisteminin necə işlədiyinə bağlıdır. Amma bilməliyik ki, burda bir münasibət yaşandı. Yoxmuş kimi davranmamalıyıq.

● **Dərdimizi dostlarımıza danışmaq məsələsini dediniz. Amma insanların dinləmək istəmədiyi bir dönəmdir. Sizcə, insanların dərdlərini dinləməliyik?**

● Ünsiyyət qurmaq artıq 10 ildir ki, yox kimidir. Danışmaq var. Hər kəs öz dərdini danışır. İnsan danışdıqca özünü tapır. Ona görə danışmaq insana yaxşı təsir edir. İnsanları dinləmək lazımdır. Mən insanları diqqətlə dinləyirəm. Amma yaxşı dinləməyən biri ilə də uzun müddət eyni masada otura, münasibət qura bilmirəm. Davamlı olaraq dərdini danışan insanı da dinləmirəm. Onlara psixovampir deyirəm, enerjimizi alırlar. Dinləmək önəmlidir, olmazsa olmazdır. Amma davamlı dərdini anladan birini də dinləməmək lazımdır.

● **İnsanlar dinləməkdən qaçılan dövrdə danışmaq üçün psixoloqlara üz tuturlar. Amma psixoloqlardan da narazılıq çox olur. Sizcə, bu, nədən qaynaqlanır?**

● Pasiyentin psixoloqdan nə gözləməsi önəmlidir. Psixoloqun onu dinləməyini istəyir, yoxsa dinlədikdən sonra rəy bildirməyini? Yaxud depressiyasını yaxşılaşdırmağını? Bəlkə deyir ki, mənim özümü daha yaxşı hiss etməyimi təmin etsin. Yaxud düşünür ki, mən qayınanam haqqında danışanda, o da mənimlə birlikdə qayınanama söysün. Psixoterapiyaya başlamaq deyil, davam etmək çətindir. Psixoloqun yanında bütün istəkləri, ehtimalları masaya qoyursunuz və özünüzlə üzləşirsiniz. Məsələn, məlum olur ki, problem qayınanada deyilmiş. İnsanın əlindən şikayəti alırsınız. Bunu alan kim? Psixoloq. Normaldır, sevilməyəcək. Önəmli olan o qıcıq olma, əsəbiləşməyi anlaya bilmək, onun üzərində işləməkdir. Çünki reallıqlar ortaya gələndə, mövzu psixoloqdan çıxır, səninlə əlaqəli olur. Gəlin qayınanasını pisləyirsə, başqa iki gəlini var, niyə sən gəldin? - deyə soruşuram. Səninlə əlaqəli nə isə olması lazımdır. Bunu dediyimdə, "Sən məni anlamırsan" deyib əsəbiləşib gedə bilər. İnsanlar psixoloqa xoşbəxt olmaq üçün gəlir, amma bizim işimiz tam da bu deyil. Biz yalnız yaxşı hiss etmək üzərində işləmirik. Bütün duyğuları hiss etmək üzərində işləyirik. Əsəb, yeri gəldiyində onu söyləmək, təəccüblənmək, həyəcanlanmaq, bir az qayğılanmaq və s. Psixoloqların xoşbəxtlik verməsi gözləntisi seriallardan filan gəlib. Amma realda tam da elə deyil.

# TOZLU HAVALARDA ZƏHƏRLƏNMƏK İSTƏMİRSİNİZSƏ...



**Son günlər Bakıda havada toz qatının miqdarının artdığını adi gözlə də müşahidə etmək mümkündür. Həkimlər bildirirlər ki, özümüzü qorumadıqda belə hava şəraiti insan orqanizmi üçün çox ağır fəsadlara səbəb olur.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Son vaxtlar Bakıda tez-tez tozlu hava müşahidə olunur. Hətta, insanlar nəfəs aldıqda bu tozlu havanı hiss etdiklərini bildirirlər. Bu dəyişikliyi Milli Hidrometeorologiya Xidməti də təsdiqləyir. Ölkə ərazisində meteoroloji şəraitlə əlaqədar şimal-şərq istiqamətli hava axınları üstünlük təşkil etdiyindən, havada transsərhəd tozlanma müşahidə olunur. Tozun miqdarı bəzi günlərdə normadan 1,2, bəzi günlərdə 2.8-3.2 dəfə, hətta 3-3.5 dəfə artıq olur.

Bu toz qatının insanlar üçün zərərləri nələrdir və insanlar özlərini necə qoruya bilərlər?

### İNSANLAR MASKA TAXMAQDAN QAÇIRLAR

Professor Adil Qeybullanın sözlərinə görə, tozun zərərli və ya zərərsiz olduğunu dəqiq bilmədiyimiz üçün ehtiyatı əldən verməməliyik: "Tozlu hava külək vasitəsilə Bakı və Abşeron yarımadasına müxtəlif yerlərdən gəlir. Bu proses adətən Orta Asiya və şimal istiqamətində müşahidə olunur. Burada tozun mənşəyi, mahiyyəti, orqanizmə nə dərəcədə zərərli olması, radioaktiv fonun olub-olmaması çox vacibdir. Çox yaxşı olar ki, insanlar belə havalarda maskadan istifadə etsinlər. Müşahidə etmişəm ki, insanlar maskadan istifadə etmək istəmirlər. Əsasən də, nəfəs yollarında problemləri olan, astma xəstəliyindən əziyyət çəkən, müxtəlif xroniki ağciyər xəstəlikləri, allergiyası olan xəstələr belə havalarda xüsusilə diqqətli olmalıdırlar".

### MÜVƏQQƏTİ XARAKTER DAŞIYIR

A.Qeybulla bildirdi ki, belə hava şəraiti əsasən bir neçə gün davam edir: "Adını qeyd etdiyim xəstəliklərin daşıyıcıları olan şəxslərdə simptomlar daha da fəallaşıb, özünü daha ağır və kəskin formalarda göstərə bilər. Tozlu hava əsasən uzun müddət davam etmir. Çünki Bakı küləklər şəhəridir və külək toz hissəciklərini dağıdıb, başqa istiqamətlərə aparır. İnsanlara tövsiyəm odur ki, bu tip halların baş verdiyi bir neçə günlük müddətdə maskadan istifadə etsinlər".




## UŞAQLAR VƏ YAŞLILAR DAHA HƏSSAS OLURLAR

İnfeksionist Mərdan Əliyev deyir ki, toz buludunun içərisində orqanizmimiz üçün zərərli olan digər toksik hissəciklər də olur: "Toz hissəcikləri insanların tənəffüs yollarına daxil olub qıcıqlandırıcı və allergik təsirlərə səbəb olur. Tozlu hava şəraiti dedikdə burada söhbət tək toz hissəciklərindən getmir. Digər toksik maddələr də var ki, onlar da ağciyərlərə daxil ola bilir. Bu səbəbdən çalışıb həmin hissəciklərdən qorunmalıyıq. Xüsusən də uşaqlar və yaşlıların orqanizmi daha həssas olur. Ona görə də toz buludu müşahidə etdiyimiz zaman uşaqları açıq havaya çıxartmamalıyıq. Ev şəraitində qorunmaq daha məqsədəuyğun hesab edilir".

### TOZA QARŞI ALLERGİYA, YOXSA XƏSTƏLİK?

M.Əliyev qeyd etdi ki, insanlar bəzən belə havalarda qripə yoluxduqlarını zənn edirlər: "Bu toz hissəcikləri allergik rinitə səbəb ola bilər. Hansı ki, burun axması, asqırma, gözlərdə sulanma ilə müşayiət olunur. Bu əlamətlər qriplə bənzədiyi üçün bəzən qarışdırılır. Hətta pnevmoniya kimi ağır xəstəliyə də səbəb olması mümkündür. Bu səbəbdən, mütləq ehtiyatlı olmalıyıq".




### YALNIZ FİLTRLİ MASKA İSTİFADƏ EDİN

İnfeksionistin fikrincə, adi maskalar toz hissəciklərinin qarşısını tam almır: "Tozlu hava şəraitindən qorunmaq üçün ən effektiv yol evdən çölə çıxmamaqdır. Lakin əgər çıxmalıyıqsa, mütləq şəkildə maskadan istifadə etməliyik. Bu, xüsusən də kəskin xəstəliyi olan şəxslərə aiddir. Lakin adi maska bizi toz hissəciklərindən yetəri qədər qorumur. Məsləhət görürəm ki, N-95 tipli maskalardan istifadə etsinlər. Çünki zərərli toz hissəcikləri çox kiçikdir. N-95 maskaları filtrli olduğu üçün daha effektivdir və bizi zərərli tozlardan qoruyur".

## XƏSTƏXANALARA MÜRACİƏT EDƏNLƏRİN SAYI ARTIB

Terapevt Sübhan Hacıyev bildirdi ki, havadakı toz miqdarının artması səbəbindən tibb müəssisələrinə müraciət edən insanların sayı artıb: "Bütün canlıların yaşamaq üçün suya və havaya ehtiyacı var. Buna görə də havanın istənilən növ çirklənməsi, yaşadığımız ərazidə hava durumunun dəyişkənliyi bütün canlılara təsir göstərir. Son günlər Bakıda havanın çirkli olduğunu görürük. Nəticədə tənəffüs yolu xəstəlikləri ilə bağlı xəstəxanalara, xüsusilə də təcili tibbi yardım şöbələrinə müraciətlərin sayı xeyli artıb".

### GÖZÜN VƏ AĞIZ BOŞLUĞUNUN SELİKLİ QIŞASINA TƏMAS ETDİKDƏ...

S.Hacıyevin sözlərinə görə, zərərli toz hissəcikləri tənəffüs sistemimizi alt-üst edir: "Ölçüləri 10 mikrondan böyük olan toz hissəcikləri orqanizmin təbii qoruma mexanizmləri tərəfindən çox zaman uzaqlaşdırıla bilir. Lakin daha kiçik toz hissəcikləri yuxarı tənəffüs yollarından keçərək aşağı tənəffüs yollarına enir. Bu zaman da tənəffüs sistemimizin ən dərinliklərinə qədər gedə bilirlər. Belə olduqda çox ciddi tibbi fəsadlarla qarşılaşırıq. Tibbi fəsadlar özünü tənəffüs yolu infeksiyaları, kəskin başağrıların qat-qat çoxalması ilə büruzə verir. Toz hissəcikləri insanın selikli qişasına təmas edərsə, ciddi qıcıqlanmalar yaradır. Xüsusilə də gözün və ağız boşluğunun selikli qişasına təmas etdikdə bu vəziyyət daha da kəskin formada özünü göstərə bilir".

### EV ŞƏRAİTİNDƏ QALMAQ TÖVSİYƏ OLUNUR

Terapevt qeyd etdi ki, tozlu havalarda pəncərəni açmaq belə təhlükəlidir: "65 yaşdan yuxarı insanlar, xroniki xəstəlikləri olanlar, xüsusilə də ağciyərlərinin xroniki obstruktiv xəstəliyi olan insanlar bu cür havalarda qətiyyən çölə çıxmamalıdırlar. Ev şəraitində qalmaları tövsiyə olunur. Yaxşı olardı ki, pəncərələri də açmasınlar, kondisionerlərdən istifadə etsinlər. Əgər çölə çıxmaq məcburiyyəti varsa, mütləq şəkildə maska və göz eynəkləri taxılmalıdır".



# NİKBİN OLAN DA VAR, EHTİYAT EDƏN DƏ

**Ölkəmizdə də müşahidə olunan qeyri-sabit hava şəraiti taxıl əkən fermerləri narahat edir. Onların sözlərinə görə, bu cür hava şəraiti taxıl zəmilərinə ciddi ziyan vurur və yığım prosesini ləngidir. Artıq bəzi ərazilərdə zəmilər güclü yağışın təsirindən yerə yatıb.**

SEVİNC ABBASOVA

Azərbaycanda unun qiymətində artım müşahidə edilir. Üstəlik əsas taxıl ixracatçımız olan Rusiyadan da bədbin proqnozlar gəlməkdədir. Rəsmi qurumların məlumatına əsasən, may ayı ərzində havaların yağışlı və şaxtalı olması səbəbindən yerli taxıl istehsalında əhəmiyyətli azalma müşahidə ediləcək. Ölkəmizdə də müşahidə olunan qeyri-sabit hava şəraiti taxıl əkən fermerləri narahat edir. Onların sözlərinə görə, bu cür hava şəraiti taxıl zəmilərinə ciddi ziyan vurur və yığım prosesini ləngidir. Artıq bəzi ərazilərdə zəmilər güclü yağışın təsirindən yerə yatıb. Fermerlər həmçinin bildirirlər ki, yağışlı hava şəraiti zəmilərdə "pas" xəstəliyinin yayılması üçün münbit şərait yaradır. Bu da məhsuldarlığa mənfi təsir göstərir.

Qeyd edək ki, Azərbaycanın taxıla olan illik tələbatı 3,5 milyon ton təşkil edir. Bunun təxminən 1,8 milyonu idxal, qalan hissəsi isə daxili istehsal hesabına təmin edilir. Ötən il Azərbaycana buğda idxalının 87 faizi Rusiyanın, 13 faizi isə Qazaxıstanın payına düşüb. Bundan başqa, 2023-cü ildə Azərbaycana buğda idxalı bir milyon 175,341 min ton təşkil edib ki, bu da 2022-ci ilin göstəricisindən 9,1 faiz azdır. Bəs, görəsən, bu il yığımın ləngiməsi məhsuldarlığın azalmasına gətirib çıxaracaqmı? Bizi taxıl qıtlığı gözləyə bilər-mi?


Cəfər İbrahimli




## MƏHSULDARLIQ AZALARSA...

Liberal İqtisadçılar Birliyinin sədri Akif Nəsirlinin sözlərinə görə, indiki şəraitdə sel və dolunun, ümumiyyətlə dəyişkən hava şəraitinin ən çox mənfi təsir etdiyi sahə taxılçılıqdır: "Bir müddət sonra taxıl zəmiləri biçinə hazır olmalıdır. Amma proses yubanacaq. Çünki məhsulun yetişmə dövrü uzanacaq. Eyni zamanda, yağış düşəndə taxılın dibində yay mövsümündə çıxan alaq otlarının inkişafı sürətlənir ki, bu da taxıl biçininə maneə törədir. Taxıl biçən kombaynlar alaq otları qalxmış sahələrdə biçin işini aparmaqda çətinlik çəkirlər".

Ekspert bildirib ki, Azərbaycan taxıla olan tələbatın əhəmiyyətli hissəsini idxal hesabına ödəyir. Bu səbəbdən qeyri-stabil hava şəraiti məhsuldarlığın azalmasına səbəb olsa belə, qıtlığa gətirib çıxarmayacaq: "Təqribən ölkədaxili taxıl tələbatının 60 faizi idxal hesabına qarşılanır. Yalnız tələbatın 40 faizi istehsal oluna bilir. Məhsuldarlıq azalarsa, sadəcə, taxılın idxal həcmi bir qədər artacaq".

### "QARABAĞDA MƏHSULDARLIĞIN YAXŞI OLACAĞI PROQNOZLAŞDIRILIB"

Aqrar sahə üzrə ekspert Cəfər İbrahimli isə deyir ki, məhsuldarlığın aşağı düşüb-düşməyəcəyi barədə konkret fikir bildirmək çətindir: "Ümumiyyətlə, indiki hava şəraitinin taxılçılığa ciddi ziyanının olduğunu düşünmürəm. Ola bilər ki, əvvəlki illərdən fərqli olaraq məhsulun yetişmə dövrü 5-10 gün geciksin. Əslində məhsulun yetişkənlik dövrünün uzanması taxılçılığa müsbət təsir göstərən amildir. Bizdə istilər qəflətən düşdüyü üçün bitkidə quruma prosesi tez başlayır və dənin tam dolması imkanı olmur. Bu da məhsuldarlığa mənfi təsir göstərir. Ona görə də havaların nisbətən sərin keçməsi bu dönəm üçün faydalıdır. Ümumilikdə bu il üçün ötən illərlə müqayisədə təxminən eyni səviyyədə istehsalın olacağını düşünürəm. Bu il Qarabağda əkilən torpaqlarda da məhsuldarlığın yaxşı olacağı proqnozlaşdırılıb".

## "YAĞAN YAĞIŞ DƏN SUYUNU ƏVƏZ EDİR"

Kənd Təsərrüfatı Nazirliyinin Bitkiçiliyin təşkili və monitorinq şöbəsinin müdiri İmran Cümşüdov taxıl istehsalı ilə bağlı kifayət qədər nikbindir. Onun sözlərinə görə, indiki hava şəraiti taxıl sahələri üçün ciddi problem yaratmır: "Ölkəmizdə bir milyon hektardan artıq sahədə taxıl əkilir. Taxılın 49 faizi dəmyə, 51 faizi suvarma şəraitində becərilir. İstər dəmyə, istərsə də suvarma şəraitində əkilən taxıldan yüksək məhsuldarlıq əldə etmək üçün yağmurlu hava şəraitinin xüsusi əhəmiyyəti var. Keçən il təxminən 170 min hektardan artıq dəmyə sahədə məhz quraqlıq səbəbindən məhsul tamamilə məhv olmuşdu. Amma bu il ötən illə müqayisədə hava şəraiti yağmurludur və nəticədə torpaqda kifayət qədər nəmlik ehtiyatı yaranıb. Bu cür havanı bitkilərin normal inkişafı, məhsulun formalaşması üçün əlverişli hesab edirik".

Bu il taxıl istehsalı ilə bağlı proqnozlara gəlincə, şöbə müdiri vurğulayıb ki, bununla bağlı konkret fikir söyləmək çətindir: "Bu günə qədər bitkilərin inkişafı normal gedib. Yağan yağmur da dən suyunu əvəz edir. Fermerlər bu aylarda adətən dənin yaxşı dolması üçün suvarma aparırdılar. Amma təbii şəkildə düşən yağış dən suyunu əvəz edib. Bu hal məhsul istehsalının artmasına, dənin yaxşı dolmasına, keyfiyyətinin yaxşılaşmasına səbəb olacaq".

### İYUNUN ƏVVƏLİNDƏN KÜTLƏVİ YIĞIM PROSESİNƏ BAŞLANILACAQ

İ.Cümşüdovun sözlərinə görə, hava şəraitinin imkan verəcəyi təqdirdə, taxıl yığımında ləngimələr olmayacaq. İyunun əvvəlindən isə kütləvi şəkildə yığım prosesinə başlanılacaq: "Bu il bir milyon 15 min hektar sahədə payızlıq taxıl əkini aparılıb. Onun 580 min hektardan artığını buğda, 417 min hektarını arpa təşkil edir. Bütövlükdə məqsədimiz odur ki, becərmə işləri normal qaydada başa çatsın və yığım prosesi itkisiz olaraq yekunlaşdırılsın. Məhsulumuz ötən illə müqayisədə bol olmalıdır. Çünki torpaqda yetərincə nəmlik var".


İmran Cümşüdov

# MAŞIN BAZARINDA DİQQƏT CƏLB EDƏN UCUZLAŞMA



Foto: Global Media Group/Sabir Məmmədov

Azərbaycanın avtomobil bazarında son illərdə ilk dəfə olaraq ucuzlaşma müşahidə edilir. Ekspertlərin fikrincə, bu tendensiya hələ bir müddət də davam edəcək. Hibrid və elektromobil avtomobillər bazara daxil olduqca, köhnə maşınların qiyməti daha da ucuzlaşacaq.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Son zamanlar paytaxtda mövcud olan tıxaclar, parkinq qiymətlərinin artması insanların şəxsi avtomobillərdən istifadəsini çətinləşdirib. Bu səbəbdən sanki zaman keçdikcə avtomobillərə maraq azalır. Məlum tendensiyanın ilkin əlamətləri özünü qiymətlərdə də göstərir. Son illərdə ilk dəfə olaraq ümumi avtomobil bazarında ucuzlaşma qeydə alınıb. Bu barədə İqtisadi və Sosial İnkişaf Mərkəzindən məlumat verilib. Belə ki, 10 min manatadək olan avtomobillərin qiyməti aprel ayında 8.2 faiz ucuzlaşıb. Aİ-95 markalı benzindən istifadə edən və daha bahalı avtomobillərə tələbin azalması müşahidə olunsa da, həmin avtomobillərin qiyməti dəyişməyib. Bəs bu ucuzlaşma prosesinin davamlı olması mümkündürmü?

**SEÇİMLƏR DƏYİŞİR**

Nəqliyyat məsələləri üzrə ekspert Yasin Mustafayevin sözlərinə görə, avtomobil bazarımızda ucuzlaşmaya son vaxtlar qəbul edilən qərarlar səbəb olub: "Hazırda bütün dünyada elektrikli və hibrid avtomobillərə maraq artır. Yeni avtomobil almaq istəyən, yaxud avtomobilini yeniləyən şəxslər əvvəlcədən kiçik də olsa bazar araşdırması aparırlar. Eyni zamanda, taksi fəaliyyəti ilə bağlı qoyulan tələblər də avtomobil bazarımıza təsir edib. Yeni qaydalara görə köhnə avtomobillər artıq taksi xidməti göstərə bilməyəcək. Ona görə də sahibkarlar avtomobillərini satmağı üstün tuturlar. Satış artdığı zaman tələb və təklif qanunlarına görə qiymətin ucuzlaşması baş verir".

**İRİ MÜHƏRRİKLİ AVTOMOBİLLƏR DƏ UCUZLAŞACAQ**

Y.Mustafayevin fikrincə, artıq köhnə avtomobillərin erası bitir: "Avtomobil alanlar hibrid və elektromobilləri seçdiyinə görə, digər nəqliyyat vasitələrinin satışı hazırda çox azdır. Köhnə avtomobil satan şəxslər daha da ucuz qiymət qoyurlar ki, tez satılsın. Beləliklə, bu məsələlər ümumi avtomobil qiymətlərinə də ciddi təsir göstərir. Müşahidə olunan ucuzlaşma prosesi davam edəcək. Həmçinin iri həcmli mühərriki olan avtomobillərin də qiymət-lərində enmə gözlənilir. Bu avto-mobillərə də tələbat azalacağı üçün onların da qiyməti ucuzlaşacaq. Artıq tanınmış maşın istehsalçıları da öz seçimlərini hibrid və elektromobillər üzərindən edirlər. Çünki bazarın tələbi bu istiqamətdədir".



**YENİ AVTOMOBİL GƏTİRMƏK DAHA SƏRFƏLİDİR**

İqtisadçı Xalid Kərimli bildirdi ki, hazırda sahibkarlara yeni avtomobilləri gətirmək daha çox sərf edir: "Hibrid və elektromobil avtomobillərə maraq keçən ildən başlayaraq sürətlə artıb. Bu avtomobillər gömrük rüsumundan da azad edilib. Xüsusən də yeni buraxılış olan bu avtomobillər ölkəmizə gətirilərkən heç bir rüsum ödənilmədiyi üçün onların qiyməti daha əlverişli olacaq. Həmin avtomobillər insanların büdcələrinə daha uyğun olduğu üçün bazarda da payları artır".

## QİYMƏTİ ALICI VƏ SATICILAR MÜƏYYƏN ETMİR

X.Kərimli qeyd etdi ki, qiymətlərin ucuzlaşması qısamüddətlidir, bazarda yeni avtomobillər çoxaldıqca, zamanla qiymətlər də stabilləşəcək: "Qiyməti ucuzlaşan avtomobillər köhnə maşınlardır. Hansı ki, onlar yeni qanuna qədər taksi parkında istifadə olunurdu. Artıq onlar təyinatı üzrə fəaliyyət göstərə bilməyəcəyinə görə kütləvi şəkildə bazara çıxarılırlar. Kütləvi təqdimat da istər-istəməz qiymətlərə öz təsirini göstərir. Bu tendensiya qısamüddətlidir. Sonra bazar yenidən stabilləşəcək. Çünki Azərbaycan bu avtomobilləri xaricdən idxal edir. Avtomobil bazarımızda qiymətləri alıcılar və satıcılar yox, əsasən gələn avtomobillərin dəyəri müəyyənləşdirir. Avtomobili gətirən sahibkar maşını sata biləcəyi halda gətirir. Görsələr ki, sata bilmirlər, bu avtomobilləri gətirməyəcəklər. Bu zaman artıq daha bahalı avtomobillər idxal ediləcək. Beləliklə, bazar stabilləşəcək. Gətirilən avtomobillərin dəyəri artacaq".

## "ƏLAVƏ RÜSUMLAR TƏTBİQ OLUNARSA, QİYMƏTLƏR YÜKSƏLƏCƏK"



Emin Qəribli

İqtisadçı Emin Qəribli isə hesab edir ki, köhnə avtomobillərin zamanla bazardan çıxması həm iqtisadiyyatımız, həm də ekologiyamız üçün müsbət addımdır: "Avtomobillərin qiymətinin ucuzlaşması müsbət haldır. Hətta bu avtomobillərə idxal rüsumundan əlavə, vergilər də tətbiq edilməlidir. Bu qayda həmçinin böyük mühərrikli avtomobillərə də tətbiq olunmalıdır. Bütün dünyada bu tendensiya var. O zaman bu avtomobillərin qiyməti də artacaq".

**ƏSAS ALICILAR XANIMLARDIR**

Maşın satışı ilə məşğul olan Fikrət İbrahimov da bazardakı mövcud vəziyyəti təsdiqləyir: "Bəli, avtomobillərin qiymətlərində ucuzlaşma mövcuddur. Demək olar ki, benzin və dizellə işləyən, iri mühərrikli bütün avtomobillərdə qiymət azalmasını görmək mümkündür. Çünki alıcılar daha çox hibrid və elektrikli avtomobillərə üstünlük verirlər. Hətta 10 min manatlıq maşını da satmaq mümkün deyil. Satıcılar qiymətləri müəyyən etsə də, alıcılıq qüvvəsi çox aşağıdır. İndi maşın alanların əksəriyyəti xanımlardır. Onların da seçimləri hibrid və elektro-mobil maşınlar olur".



Xalid Kərimli

# HƏR SAATA VERİLƏN DƏYƏR




**Azərbaycanda aylıq minimum əməkhaqqı saatlıq minimum əməkhaqqı ilə əvəz edilə bilər. Bir müddətdir bu istiqamətdə müzakirələr gedir. Bəs bu keçid hansı formada olacaq?**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Əməkhaqqı təkcə işçiləri deyil, həm də işəgötürəni maraqlandıran həssas məsələdir. Əgər söhbət minimum əməkhaqqının hesablanması qaydasının dəyişdirilməsindən gedirsə, onda məsələnin daha çox suallar doğurması təbiidir. Bu günlərdə gündəmi zəbt edən "Azərbaycanda aylıq minimum əməkhaqqı saatlıq minimum əməkhaqqı ilə əvəz edilə bilər" xəbəri də cəmiyyətdə çoxsaylı suallar yaradıb. Məlumat Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "İşçi qüvvəsi" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsində öz əksini tapıb.

Məsələ ilə bağlı ekspertlərin dünya təcrübəsinə istinad edilən "Dünya ölkələrində minimum aylıq əməkhaqqı yoxdur, minimum saatlıq əməkhaqqı mövcuddur. Minimum saatlıq əməkhaqqına görə minimum aylıq əməkhaqqı hesablanır" kimi fikirləri durmadan tirajlanmaqdadır.

Amma keçid zamanı hesablamanın necə aparılması, saatlıq əməkhaqqını təmin etmək üçün hansı şərtlərin irəli sürülməsi və s. kimi suallar hələlik açıq qalır.



Vüqar Bayramov

Foto: Firudin Salimov/Global Media Group

### DAHA YÜKSƏK ƏMƏKHAQQINA VƏSİLƏ OLACAQ?

Bir sıra ölkələrdə bu təcrübənin tətbiq olunduğunu deyən millət vəkili Vüqar Bayramov izah edir ki, keçidin əsas mahiyyəti məhz əməkhaqqının ay üzrə deyil, saatlar üzrə hesablanmasıdır: "Məqsəd ondan ibarətdir ki, vətəndaşın işlədiyi saatlara uyğun olaraq, əməkhaqqının hesablanması və ödənilməsi həyata keçirilsin. Bu, praktik olaraq aylıq minimum əməkhaqqını sıradan çıxması anlamına gəlmir. Çünki bu zaman saatlıq minimum əməkhaqqı əsasında ay üzrə minimum əməkhaqqı hesablanması mümkündür. Nəticədə bu, imkan verəcək ki, baza olaraq saatlıq minimum əməkhaqqıdan istifadə olunsun və onun əsasında aylıq maaş müəyyən edilsin. Bu da təbii ki, ay üzrə vətəndaşın əldə etdiyi əməkhaqqı məbləğinin müəyyənləşdirilməsinə gətirib çıxaracaq. Ona görə də gözlənilir ki, saatlıq əməkhaqqına keçid olarsa, bu zaman təbii ki, aylıq minimum da nəzərə alınmaqla qaydalar tənzimlənəcək". İqtisadçının sözlərinə görə, saatlar üzrə qiymətləndirilmə həyata keçirildiyi üçün bu, vətəndaşa bir yerdə deyil, bir neçə yerdə işləmək imkanı verə bilər. Nəticə etibarilə bu, işçinin daha yüksək əməkhaqqı almasına gətirib çıxarar".

## HƏFTƏ SONU, BAYRAM GÜNLƏRİ İŞLƏYƏNLƏR SEVİNƏ BİLƏRLƏR

V.Bayramov bildirir ki, müəyyənləşdiriləcək minimumlar həm özəl, həm də dövlət sektoru üçün keçərlidir: "Bu zaman hər hansı mülkiyyət mənbəyinə görə fərqləndirmə olmayacaq. Təbii ki, məbləğ mexanizmin özündən asılı olaraq müəyyənləşəcək. Bu, həm saatların sayı ilə bağlı minimumlar, həm minimum əməkhaqqı ilə bağlı mövcud qaydalar və gözləntilər nəzərə alınaraq müəyyənləşəcək məbləğ olacaq. Ona görə indidən saatlıq əməkhaqqının məbləğini söyləmək praktik olaraq mümkün deyil. Təbii ki, əsas meyar ondan ibarət olacaq ki, minimum əməkhaqqı məbləği nəzərə alınmaqla müəyyənləşsin. Bu da imkan verəcək ki, vətəndaş ay ərzində minimum əməkhaqqıdan daha yüksək əməkhaqqı ala bilsin". Qeyri-iş günlərinə və iş saatından artıq işləyən işçilərə gəlincə, ekspertin dediyinə görə, bu zaman qeyri-iş günləri, hətta işdən sonra işləyənlər üçün saatlıq əməkhaqqı məbləği fərqli olacaq: "Əslində, saatlıq əmək haqqının özəlliyi ondan ibarətdir ki, vətəndaş həftə sonu, bayram günlərində və ya iş saatından sonra çalışırsa, bu haqda xüsusi əmsala vurulmaqla onun əməkhaqqı hesablansın. Ona görə bu, imkan verəcək ki, daha çox işləyən, həftə sonu, qeyri-iş günləri işə dəvət olunan vətəndaşların əmək haqqı daha yüksək olsun. Bu, iş adamları tərəfindən daha aşağı əmək haqqının ödənilməsinin qarşısını ala bilər".

## ƏMƏYİN ÖDƏNİŞİ SİSTEMİNDƏ MÜASİR STANDART

Vətəndaşların Əmək Hüquqları Liqasının sədri Sahib Məmmədov da təklif edilən yeniliyi əməyin ödənişi sistemində müasir standart kimi görür: "Yəni ixtisası olmayan bir işçi üçün bir saat ərzində minimum nə qədər ödəmək olar? Bu məsələdə "yuxarı" hədd tənzimlənmir, yalnız aşağı həddi nəzərdə tutulur. Bizim Əmək Məcəlləsində sosial-iqtisadi şərait nəzərə alınmaqla ixtisassız işçiyə veriləcək minimum əməkhaqqı mövcuddur. Gündə 8, həftədə 40, ayda 167 saat işləyən bir işçiyə 345 AZN-dən aşağı əməkhaqqı vermək olmaz. Fikrimcə, minimum əməkhaqqı bir saata 2 manat 05 qəpik düşür. Biz bunu 1 manat artırsaq belə, yekun məbləğ 500 AZN-i keçəcək. Dövlətin belə bir artıma gedib-getməyəcəyini bilmirəm. Çünki artım olsa, bu, dövlət büdcəsinə əlavə xərclər deməkdir". Ekspert bu istiqamətdə qərarın yaxın vaxtlarda qəbul olunacağına əmin deyil: "Fikrimcə, müvafiq qurumlar bununla bağlı təkliflərini hazırlayacaq, müəyyən hesablamalar aparacaq, bir sıra qanunvericilik aktlarına dəyişiklik ediləcək".



Sahib Məmmədov

Ekspertin fikrincə, saatlıq əməkhaqqının iş saatından artıq və qeyri-iş günləri işləyənlərə aidiyyəti olmayacaq: "Belə çıxmasın ki, bundan sonra kim neçə saat işlədi, ona görə əməkhaqqı alacaq. Tutaq ki, kimsə dövlət qulluğunda bir inzibati vəzifə tutur, onun şərti əməkhaqqı 1000 AZN-dir və əmək müqaviləsində gündəlik 8 saat işləməsi yazılıbsa, o, əvvəlki kimi işləyəcək, onun üçün heç nə dəyişməyəcək. Və yaxud, siz jurnalistsiniz, gündə 8 saat işləməlisiniz və buna görə sizə 700 AZN pul ödənilir. Yeni qayda sizə də şamil edilməyəcək. Bunun minimum əməkhaqqı alanlara aidiyyəti olacaq". S.Məmmədov bütün hallarda belə bir müzakirənin olmasını dəstəkləyir: "Hələ MDB ölkələri bu sistemə keçməyiblər. Ola bilər ki, biz bu keçidi edən ilk ölkə olaq".

# “AZERCONNECT GROUP” MÜKAFATA LAYİQ GÖRÜLÜB

Azərbaycanın ən böyük İKT şirkəti olan “Azerconnect Group” beynəlxalq audit şirkəti “Deloitte” tərəfindən təsis olunmuş “Best Managed Companies Azerbaijan 2024” müsabiqəsinin qalibi elan edildi.

“Azerconnect Group”-un fəaliyyəti uğurlu strategiya, innovasiyaların tətbiqi, effektiv idarəetmə modeli, səmərəlilik, korporativ mədəniyyət və digər göstəricilər üzrə geniş təhlil edilərək qalib elan edildi. Tədbir zamanı mükafat “Azerconnect Group”-un Kommersiya üzrə baş müdiri Müşfiq Əliyevə təqdim olunub.

Qeyd edək ki, “Best Managed Companies Azerbaijan 2024” mükafatı dünyanın ən böyük audit şirkəti olan “Deloitte” tərəfindən təsis edilib və hər il ölkənin özəl sektorunda fəaliyyət göstərən şirkətləri qiymətləndirir.

2013-cü ildən fəaliyyətə başlayan “Azerconnect Group” Mobil, İnternet, Beynəlxalq kanalların təşkili və FinTech, AdTech, Media / Tv kimi rəqəmsal xidmətlər təqdim edir. Üç mindən çox əməkdaşı olan “Azerconnect Group” 2023 və 2024-cü illərdə iş şəraiti və insan resursları göstəricilərini qlobal meyarlar üzrə dəyərləndirən “Top Employers Institute” tərəfindən “Ən Yaxşı İşəgötürən” sertifikatına layiq görülmüşdür.

“Azerconnect Group” ölkəmizin dinamik şəkildə inkişaf edən İKT və yüksək texnologiyalar sahələrində xidmətlər göstərən şirkətdir. “Azerconnect Group” müxtəlif ölkələrdə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən “NEQSOL Holding” beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

# TULLANTI SULARINDAN İSTİFADƏ OLUNACAQ



Azərbaycanda tullantı sular təmizləndikdən sonra müəyyən kənd təsərrüfatı məhsullarının istehsalı üçün bioloji gübrə ilə qarışdırılıb istifadə oluna bilər. “Report” xəbər verir ki, bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekspertiza Agentliyinin İdarə Heyətinin sədri Mirsalam Qənbərov Birləşmiş Krallığın Xarici İşlər, Birlik və İnkişaf ofisinin (FCDO) maliyyələşdirdiyi “Gənc aqrosahibkarlar” layihəsinin açılış konfransında deyib. “Bununla da həm suya qənaət edərik, həm də kənd təsərrüfatı məhsuldarlığının artım göstəricisinə nail olarıq”, - deyə M. Qənbərov bildirib. Onun sözlərinə görə, bunun üçün bütün rayonların kanalizasiya şəbəkələri mərkəzləşdirilmiş sistemlərə qoşulma standartlarına cavab verməlidirlər və burada formalaşan tullantı sular normativ daxilində təmizlənməlidir.




# jestdili.az-ın istifadəçilərinin sayı ikiqat artdı

Ənənəvi olaraq, sərfəli operator kimi tanınan “Nar” sosial layihələri ilə də cəmiyyətə töhfə verməyə davam edir. Bu layihələr sırasında inklüziv cəmiyyət qurmağa yönələn və beynəlxalq mükafata layiq görülən jestdili.az elektron jest dili lüğəti xüsusi önəm daşıyır.

“Nar”ın dəstəyi ilə ADA Universitetinin tələbələrinin bu ilin əvvəlində yenilədiyi saytda son üç ayın nəticələrinə əsasən istifadəçi sayı ikiqat artıb. Daha bir statistik göstəricəyə görə isə saytda ən çox axtarılan ifadələr “salam”, “ata” və “ana” sözləridir. Sayta marağın artmasının səbəblərindən biri universitetin tələbələrinin təşəbbüsü ilə istifadəçi rahatlığını təmin etmək üçün saytın interfeysinin, dizaynının və axtarış sisteminin təkmilləşdirilməsi və bir çox digər funksiyalarla zənginləşdirilməsidir.

Layihənin digər tərəfdaşı olan “Karlara Dəstək” İctimai Birliyinin sədri Kamran Abasov Azərbaycan jest dilini tamamilə pulsuz öyrənməyə imkan verən resursun yalnız eşitmə və nitq məhdudiyyətli şəxslər üçün olmadığını bildirir: “Dörd ildir, fəaliyyət göstərən jestdili. az saytına maraq gündən-günə artmaqdadır. Bu sayt təkcə nitq və eşitmə məhdudiyyətlilər üçün olmadığından hər kəs buradan tam ödənişsiz olaraq faydalana bilər. Hesab edirəm ki, biz bir-birimizi daha yaxşı anlamaqla məhdudiyyətləri aşa və inklüziv cəmiyyət qura bilərik”.

Qeyd edək ki, daim təkmilləşdirilən elektron lüğət hazırda 4000 sözün və 500 çox işlənən cümlələrin video izahını təqdim edir. 2023-cü ildə Beynəlxalq İctimaiyyətlə Əlaqələr Assosasiyası (IPRA) jestdili.az layihəsini əsas götürərək “Nar”ı ən yaxşı korporativ məsuliyyət nominasiyasında birinci yerə layiq görüb.

# “AL MARKET” STİMULLAŞDIRICI LOTEREYANIN HƏDİYYƏLƏRİNİ TƏQDİM EDİB



“AL Market” müştərilərinin gündəlik alış-verişlərini böyük hədiyyələrə çevirib. Bütün “AL Market” mağazalarında keçirilən lotereyada müştərilər həm sərfəli alış-veriş edib, həm də 36 günə 37 möhtəşəm hədiyyə qazanıb.

Bütün qaliblərin hədiyyələri elə alış-veriş etdikləri mağazalarda onlara təqdim edilib. Azərbaycanın dörd bir yanında fəaliyyət göstərən “AL Market”in qalibləri də fərqli ərazilərdən olub.

Qaliblər Bakı, Sumqayıt, Cəlilabad, Qazax, Gəncə, Şəki, Xaçmaz, Bərdə, Sabirabad, İmişli, Salyan, Kürdəmir, Ağstafa, Şəmkir, Göyçay, Qəbələ, Astara, Şirvandan olub.

Qaliblər canlı yayımda seçilib və sevinclərini izləyicilərlə paylaşıblar.

Nəhayət, final mərhələsində Park Bulvarda şou proqramla “C11 Leap Motor” qalibi seçilib və Şəkidə qalibin alış-veriş etdiyi mağazada təqdim edilib.

Bütün qalibləri təbrik edirik.

Kaspi
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 1215
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# AVROPANIN İLK RƏSMİ UŞAQ EVİNDƏN REPORTAJ

Florensiyadakı tarixi uşaq evi 600 il bundan öncə yaradılıb. Bu illər ərzində burada bir milyondan çox uşaq tərbiyə olunub. İndi bina qapılarını turistlərin üzünə "Məsumlar muzeyi" kimi açır.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

İtaliyada mədəni dəyər daşıyan dünyaca məşhur memarlıq və incəsənət abidələri sırasında Florensiya Uşaq Evi də mühüm yer tutur. Florensiya şəhərinin tarixi küçələrindən birində yerləşən bina – "Ospedale degli Innocenti" muzeyi hazırda qapılarını turistlərə "Məsumlar muzeyi", "Günahsızlar sığınacağı", "Məsumlar xəstəxanası" və ya "Məsum yetimlər evi" kimi açır. Müəssisə 600 il bundan öncə vətəndaşların həyat şəraitinin yaxşılaşdırılmasına yönəlmiş geniş xeyriyyə təşəbbüsləri proqramının bir hissəsi kimi yaradılıb. Bu, Avropada ilk dünyəvi qurum idi.

## 600 İL ƏRZİNDƏ BİR MİLYONDAN ÇOX UŞAQ

15-ci əsrdə valideynləri tərəfindən tərk edilən və yetim uşaqlar Florensiyanın ən güclü gildiyalarından birinin - ipək istehsalçılarının himayəsinə götürülür. Məhz onlar İntibah memarlığının atası Filippo Brunelleşçiyə binanın dizaynını həvalə etdilər. Tikinti 1419-cu ildən 1445-ci ilə qədər – 26 il davam edir və Filipponun tələbəsi və həmkarı Françesko della Lunanın rəhbərliyi altında tamamlanır. Bir çox sənət tarixçilərinin fikrincə, Florensiya Uşaq Evi təkcə İtaliyanın deyil, həm də dünya memarlığının inkişafına güclü təsir göstərib.

Əvvəlcə hospital kimi nəzərdə tutulan binanın inşası üçün yer kilsə tərəfindən verilir. Bu, Avropada ilk uşaq evi kimi rəsmiləşir.

Binanın birinci mərtəbəsində işçilər və idarəedicilər üçün otaqlar, anbarlar və mətbəxlər yerləşirdi. İkinci mərtəbə iş və uşaqlar üçün yataq otaqları ilə təchiz edilmişdi.

Binanın mənfi cəhətləri də olub. Məmar uşaq bezlərinin və paltarların yuyulması və qurudulması, körpələrin yuyulması, dayələr və tibb işçiləri üçün otaqların təşkilini ümumiyyətlə təmin etməyib. Buna görə də binanın istismarı zamanı bu otaqların yerləşdirilməsi üçün daxili otaqlar bir neçə dəfə yenidən qurulub. Uşaqların sayı artdıqca binanın sahəsi də genişləndirilib. 600 il ərzində uşaq evində bir milyondan çox uşaq tərbiyə olunub. Binanın özünəməxsus cəhəti tikilinin sol tərəfində anaların yeni doğulmuş körpələrini qoya biləcəyi xüsusi yuva idi. 5 fevral 1445-ci ildə sığınacağa ilk atılmış uşaq daxil olub...

"Uşaq evi kimsəsiz uşaqlar üçün məsuliyyət daşıyırdı və onların cəmiyyətə inteqrasiyası üçün şərait yaradırdı", - deyə muzeyin əməkdaşı ziyarətçilərə məlumat verir: "Orada onlar nəinki tapılan körpələri yedizdirirdilər, həm də sonradan cəmiyyətin tamhüquqlu üzvü olmaq üçün onların böyüməsinə və peşə sahibi olmasına kömək edirdilər. Məktəbi bitirəndə oğlanlar oxumağı bilirdilər və meylli olduqları peşəyə yiyələnirdilər. Qızlar tikiş tikməyi, yemək bişirməyi, ev təsərrüfatını idarə etməyi mənimsəyirdilər. Bundan əlavə, uşaq evindən çıxan qızlara cehiz də verilirdi ki, bu da onların ailə qurmasına kömək edirdi".

Ekspozisiyalarda uşaq evində böyüyən uşaqlara aid nadir sənədlər var. Bəzi analar uşaqlarını atarkən gələcəkdə tapmaq üçün yanlarında medalyon və ya ad yazılmış kiçik bir parça qoyublar. "Körpələr əsasən varlı ailələrdən olub. Qulluqçulardan və ikinci nikahdan doğulan uşaqlardan məcburən imtina edilib", - deyə muzeyin işçisi davam edir: "Uşaq evində böyüyən uşaqların hamısına o dövrdə "Innocenti" (məsum, günahsız) soyadı verilib. Mövcud olduğu 600 il ərzində "Ospedale degli Innocenti" bir milyondan çox yetim uşağı böyüdüb. Əgər şəhərin küçələri ilə gedərkən mənzillərin qapılarının zəngi altında "İnnocenti/degli Innocenti" soyadını görsəniz, bu, həmin şəxsin ailəsində kimsənin burada böyüdüyü anlamına gəlir. Yetimlərə çox vaxt uşaq evinin adına görə soyadlar verilirdi. 1990-cı ildə bu, qadağan olundu".




## HƏR KƏSİN ÖZ HƏYAT HEKAYƏSİ

Muzeydə məktublar guşəsi maraq doğurur. Buraya gələn insanlar öz ürək sözlərini yazırlar: "Həmin məktublarda hər kəsin öz həyat hekayəsi var. Dünyanın tanınmış insanları, Roma papaları, xoşməramlı səfirlər də muzeyə baş çəkirlər".

Muzeydə uşaqlara aid zəngin arxiv qorunur. Bu sənədlər vasitəsilə uşaq evinin yaradılmasından, onun varlı və mərhəmətli himayədarları, rahibələr tərəfindən böyüdülən uşaqlar haqqında məlumatlar əldə etmək olur: "Arxivə vaxtilə övladlarını atan analar, atalar və ya onların qohumları müraciət edirlər. Tərk edilən və ya valideynini itirən uşaqlar özləri də haqlarında məlumat almaq üçün arxivə gəlirlər".

"Günahsızların sığınacağı" həm də rəsm qalereyaları ilə məşhurdur. Burada altı əsr ərzində ianələr yolu ilə toplanmış nadir tablolar, heykəllər və artefaktlar kolleksiyası var. 16-cı əsrin naməlum rəssamı tərəfindən çəkilən "Mərhəmət donlu Madonna", Botiçellinin "Madonna və uşaq" tablosu kimi qalereyada 70-dən çox dini rəsm əsəri var. Buna görə də bu muzey dünyanın hər yerindən turistləri və sənət tarixçilərini cəlb edir.

## BİNA TARİXİ ƏHƏMİYYƏTİNİ QORUYUB SAXLAYIR

İndi bina tarixi əhəmiyyətini və statusunu qoruyub saxlayır. Bu məkan hazırda sığınacağın çoxəsrlik tarixinə həsr olunmuş interaktiv muzey, kitabxanası, kilsəsi və panoramik kafesi olan "Günahsızlar İnstitutu" (İsttituto degli Innocenti) kompleksidir. Şəhərin tarixi hissəsində yerləşdiyinə və əhəmiyyətinə görə "Ospedale Degli Innocenti"yə baxış bir çox ekskursiya proqramlarına daxildir.

Muzeylə yanaşı binada üç sığınacaq yerləşir: Uşaq yaslisi, tibb məktəbi və qadın sığınacağı. Həmçinin Florensiyanın ən mühüm xeyriyyə təşkilatları və UNİCEF-in ofisləri də bu binada fəaliyyət göstərir.



Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
1 IYUN ŞƏNBƏ 2024
www.ka

## Rekordçu "Real Madrid"

**"Uembli"dəki final tərəflərin Çempionlar Liqasının bu mərhələsindəki ilk qarşılaşmasıdır. Madrid təmsilçisi turnirin rekordçusudur. Daha əvvəl 17 dəfə final oynayan kollektiv bunların 14-də baş mükafata yiyələnməyi bacarıb. Müqayisə üçün qeyd edək ki, klubun ən yaxın izləyicisi İtaliya "Milan"ı iki dəfə az - yeddi dəfə turnirin qalibi olub. "Borussiya" Londonda ikinci, ümumilikdə üçüncü ÇL finalına çıxacaq. Almanlar bir dəfə - uzaq 1997-ci ildə kuboku muzeyinə apara bilib. 2013-cü ildə isə elə "Uembli"də keçirilən finalda digər Almaniya təmsilçisi "Bavariya"ya güc gəlmək mümkün olmayıb.**



İngiltərənin məşhur "Uembli" stadionunda keçiriləcək oyunda İspaniya "Real Madrid"i və Almaniya təmsilçisi "Borussiya" (Dortmund) üz-üzə gələcəklər. UEFA Çempionlar Liqasının qalibi məhz bu oyundan sonra bəlli olacaq.

# "REAL", YOXSA "BORUSSİYA"?

Avropada futbol mövsümü sona çatır. Bu gün UEFA Çempionlar Liqasının (ÇL) finalı ilə "köhnə qitə"nin klub futbolunda baş mükafat sahibini tapacaq. İngiltərənin məşhur "Uembli" stadionunda keçiriləcək həlledici oyunda İspaniya "Real Madrid"i və Almaniya təmsilçisi "Borussiya" (Dortmund) üz-üzə gələcəklər.

**AĞIR FİNAL YOLU**

Hər iki kollektiv finala qədər çətin sınaqlardan keçib. Düzdür, Madrid klubu qrup mərhələsini çox asanlıqla başa vurub. "Napoli", "Braqa" və "Union"a rəqib olan Karlo Ançelottinin komandası maksimum nəticə - 18 xalla mərhələ adlayıb. "Borussiya" isə "ölüm qrupu"nda, bəlkə də, çoxları üçün gözlənilməz nəticə əldə edərək birinci olub. "Milan", "Nyukasl" və PSJ ilə qarşılaşan dortmundlular 11 xalla qrupun ən güclüsü kimi mərhələ adlayıblar.

"Real Madrid" 1/8 finalda digər Almaniya təmsilçisi "Leypsiq"lə duellərdən çətinliklə qalib ayrılıb (1:0, 1:1). "Borussiya" isə bu mərhələdə PSV-ni iki oyunun cəmində 3:1 məğlub edib. Növbəti mərhələdə Edin Terziçin yetirmələri digər Madrid klubu "Atletiko" ilə ağır dueldən qalib ayrılıb. İlk oyundakı 1:2 hesablı məğlubiyyətin əvəzini 4:2 hesablı qələbə ilə almaq mümkün olub. "Real Madrid" isə ¼ finalda turnirin son qalibi "Mançester Siti" ilə dramatik görüşlərə çıxıb. İki oyunun nəticəsində qalib müəyyənləşməyib və yalnız penaltilər seriyasında "kral klubu" daha güclü olub. Yarımfinalda komanda mövsümdə üçüncü alman rəqibi – "Bavariya" ilə üz-üzə gəlib. Bu dəfə madridlilər iki oyunun cəmində 4:3 üstün olmağı bacarıblar. "Borussiya" isə qrup mərhələsində üstələdiyi PSJ-ni bu dəfə hər iki qarşılaşmada minimal hesabla məğlub etməyi bacarıb.



## ROYS, YOXSA KROOS ÜÇÜN MÜKƏMMƏL VİDA?

Çempionlar Liqasının finalı onsuz da xüsusi qarşılaşmadır, amma iki futbolçu üçün bugünkü oyunun əhəmiyyəti daha artıqdır. 12 mövsümdən sonra Marko Roys yetirməsi olduğu "Borussiya"dan ayrılır. O, 2012-ci ildə komandaya qayıtdıqdan sonra doğma klubunda 170 qol və 131 məhsuldar ötürmə ilə yadda qalsa da, heç vaxt Bundesliqanın qalibi olmaq arzusuna çata bilməyib. Lakin indi o, Çempionlar Liqasının qalibi olmaq kimi mükəmməl sonluqla vidalaşmaq şansına sahibdir.

Madrid cəbhəsində isə digər alman Toni Kroos karyerasını zirvədə başa vurmağın xəyallarını qurur. Onsuz da onun "Real Madrid" karyerası nağıl kimidir. 2014-cü ildə İspaniya paytaxtına üz tutan yarımmüdafiəçi burada dörd dəfə Çempionlar Liqasının qalibi olub və saysız-hesabsız digər mükafatlara yiyələnib. O, "Borussiya" ilə görüşdən sonra klub karyerasını bitirəcəyini açıqlayıb.

## BELLİNQEM KEÇMİŞ SİLAHDAŞLARINA QARŞI

Final üçün ən çox diqqət mərkəzində olan adlardan biri Cud Bellinqemdir. O, keçən ilin yayında məhz "Borussiya"dan "Real Madrid"ə transfer olunub və mükəmməl mövsüm keçirir. La Liqanı qazanan ingilisin növbəti hədəfi ÇL-dir. Yeri gəlmişkən, bəzi məlumatlara görə, "Real Madrid"in turnirin qalibi olacağı təqdirdə Bellinqem transferinin tərkib hissəsi kimi almanlara 25 milyon avro ödəməlidir. Bu isə turnirin qalibinə veriləcək mükafatdan da çoxdur. Lakin xəbərlər təsdiqini tapmayıb.

Bəzi mütəxəssislər finalı Bellinqemlə Yulian Brandtın dueli kimi xarakterizə edir. İngilis oyunçu kimi alman yarımmüdafiəçi də əla mövsüm keçirir. "Borussiya"nın bu mərhələyə gəlməsində ən böyük pay sahiblərindən biri məhz Brandtdır. Mövsümün oyununda hansının – Bellinqemin, yoxsa Brandtın orta xətdə daha effektiv olmasının yekun nəticədə böyük rol oynayacağı ehtimal edilir.

Mütəxəssislər "Real Madrid"i daha şanslı hesab edirlər. Lakin final bir matçdan ibarətdir və dəfələrlə tamamilə gözlənilməyən nəticələr qeydə alınıb. Üstəlik, bu mərhələyə qədər keçdiyi yolla "Borussiya" iddiasını tam ortaya qoya bilib.